“Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planının İqtisadiyyat Nazirliyi tərəfindən icrası üzrə 2017-ci il üçün iş planı”nda nəzərdə tutulmuş tapşırıqların icra vəziyyəti barədə məlumat

| № | Tədbirin adı | Nazirlik tərəfindən 2017-cı ildə görülmüş işlər |
| --- | --- | --- |
| 1. | Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli Qərarı ilə təsdiq edilmiş “Elektron xidmət növlərinin Siyahısı”nın təkmilləşdirilməsi, siyahıda olan, lakin tam fəaliyyət göstərməyən xidmətlərin fəaliyyətinin təmin edilməsi və "Elektron hökumət" portalına yeni xidmətlərin inteqrasiya edilməsi (1.1) | Müasir dövrün qlobal çağırışlarına uyğunlaşmaq, iqtisadiyyatın rəqəmsallaşdırılması və Azərbaycan Respublikasının Rəqəmsal Ticarət Ticarət Qovşağı kimi mövqeyinin daha da yüksəldilməsi istiqamətində aparılan genişmiqyaslı islahatlar çərçivəsində İqtisadiyyat Nazirliyinin üzərinə böyük vəzifələr düşür. İqtisadiyyat Nazirliyinin funksional fəaliyyət istiqamətləri üzrə dövlət xidmətlərinin dövrün tələblərinə uyğun daha təkmil və modern təşkili, informasiya sistemlərinin inteqrasiyası sahəsində həyata keçiriləcək əsas istiqamətlərin müəyyən olunması, qlobal trendlər nəzərə alınmaqla bəzi xidmətlərin qeyri-elektron təqdim olunmasından imtina edilərək, yalnız elektron təqdim olunması, bununla da xidmətlərin təşkil olunmasına sərf olunan maliyyə vəsaitinə və vaxta qənaət edilməsi, eyni zamanda, bu istiqamətdə vətəndaş məmnunluğuna nail olunması, informasiya və bilik bazarının yaradılması, sahibkarların ümumdünya elektron məkanına daha sürətli inteqrasiyası və İKT-nin imkanlarından maksimum yararlanması üçün şərait yaradılması, biznes subyektlərinin rəqəmsal mühitə keçidinin stimullaşdırılması Nazirliyin əsas prioritet istiqamətlərindəndir.<br>Hazırda İqtisadiyyat Nazirliyi tərəfindən 4-ü informativ, 15-i interaktiv olmaqla 19 elektron xidmət göstərilir. İqtisadiyyat Nazirliyinin elektron xidmətlərin sayının artırılması istiqamətində zəruri inzibati-texniki və hüquqi işlər tamamlanmış və növbəti il üçün 70-ə yaxın yeni elektron xidmətin fəaliyyətə başlaması və elektron hökumət portalına inteqrasiya edilməsi üçün müvafiq prosessual tədbirlər görülmüşdür.<br>Həmçinin, mövcud elektron xidmətlərin təkmilləşdirilməsi və inkişaf etdirilməsi istiqamətində də işlər davam etdirilmişdir. Belə ki, İqtisadiyyat Nazirliyinin kollegiyasının 14.06.17. tarixli 3 nömrəli Qərarı ilə “Kommersiya qurumlarına və publik hüquqi şəxslərə münasibətdə qrant müqavilələrinin (qərarlarının) |

| | | |
|---|---|---|
| | | qeydə alınması üçün müraciətin və sənədlərin qəbulu haqqında inzibati reqlament"i təsdiq edilmişdir. Reqlamentə uyğun olaraq sözügedən xidmət, o cümlədən malın mənşə ölkəsini təsdiq edən sertifikatın verilməsi və ixrac olunan yeyinti məhsullarının keyfiyyətini və təhlükəsizliyini təsdiq edən keyfiyyət sertifikatının verilməsi üzrə elektron xidmətlər Milli Fəaliyyət Planının 1.1-ci və 1.4-cü bəndlərində nəzərdə tutulmuş tələblər nəzərə alınmaqla İqtisadiyyat Nazirliyinin elektron səhifəsində təkmilləşdirilmiş və "Elektron hökumət" portalına yeni formada inteqrasiya edilmişdir. Bununla yanaşı, dövlət orqanları arasında elektron məlumat mübadiləsinin təmin olunması istiqamətində də addımlar atılmış və həmin elektron xidmət Vergilər Nazirliyinin və Daxili İşlər Nazirliyinin elektron informasiya sistemlərinə inteqrasiya edilmişdir.<br>Eyni zamanda, ixrac olunan yeyinti məhsullarının keyfiyyətini və təhlükəsizliyini təsdiq edən keyfiyyət sertifikatının verilməsi üzrə tələb olunan mənşə sertifikatı sənədinin nömrəsinin sistemə daxil edilməsi sözügedən sənədin surətinin sistemə yüklənilməsi zərurətini aradan qaldırmışdır. Daha iki xidmət – "İnvestisiya təşviqi sənədinin verilməsi üçün müraciətin və sənədlərin qəbulu" və "İnvestisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi üçün müraciətin və sənədlərin qəbulu" xidmətlərinin elektronlaşdırılması üzrə işlər yekunlaşdırılmışdır. Qeyd olunan xidmətlərin inzibati reqlamentləri təsdiq edildikdən sonra "Elektron hökumət" portalına inteqrasiyası təmin ediləcəkdir.<br>Bundan əlavə, "Lisenziyalar və icazələr" portalı haqqında Əsasnamə"nin layihəsi hazırlanmış və Azərbaycan Respublikası Prezidentinin 21.01.17. tarixli 1205 nömrəli Fərmanı ilə təsdiq edilmişdir. Milli Fəaliyyət Planının, Azərbaycan Respublikası Prezidentinin "Dövlət xidmətlərinin göstərilməsində şəffaflığın artırılması, yaşayış yeri üzrə qeydiyyat və lisenziyalaşdırma prosedurlarının elektronlaşdırılması sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 31.08.15. tarixli 588 nömrəli Fərmanının 2-ci hissəsinin və "Lisenziyalar və icazələr" portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 21.01.17. tarixli 1205 nömrəli Fərmanının 4.1-ci bəndinin icrasını təmin etmək üçün İqtisadiyyat Nazirliyi tərəfindən Azərbaycan Respublikasının Prezidenti |

| | | |
|---|---|---|
| | | yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birlikdə "Lisenziyalar və icazələr" portalının yaradılması ilə bağlı işlər başa çatdırılmışdır. Portalın tam fəaliyyətə başlaması nəticəsində sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün tələb olunan bütün lisenziya və icazələrin verilməsi tamamilə elektron qaydada həyata keçiriləcək, bununla bağlı müraciətlərin təqdim edilməsi, qəbulu, nəticələrinin rəsmiləşdirilməsi daha da şəffaf, rahat, səmərəli və operativ şəkildə təmin ediləcək, tələb edilən vaxtın və maliyyə xərclərinin optimallaşdırılması, dövlət orqanlarının informasiya sistemlərinin uzlaşdırılması və qarşılıqlı əlaqəsinin təmin edilməsi mümkün olacaqdır. Qeyd olunan portal artıq test rejimində işləyir və növbəti ildən başlayaraq tam fəaliyyət göstərəcəkdir.<br>Milli Fəaliyyət Planının 1.1-ci və 1.4-cü bəndlərində nəzərdə tutulmuş tapşırıqların tam şəkildə icrasının təmin edilməsi məqsədi ilə "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın və "Elektron xidmət növlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24.11.11. tarixli 191 nömrəli Qərarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar layihəsi, siyahıya əlavə edilməsi təklif edilən lisenziya və icazələrlə bağlı elektron xidmətlərin və İqtisadiyyat Nazirliyi tərəfindən göstəriləcək digər yeni elektron xidmətlərin inzibati reqlamentlərinin layihələri üzərində işlər yekunlaşmaqdadır. Eyni zamanda bildiririk ki, portalın fəaliyyətini təmin etmək üçün aidiyyəti dövlət orqanlarının informasiya sistemlərinin portala inteqrasiyası zəruridir. Həmçinin portal istifadəyə verilməmişdən əvvəl portalın iştirakçısı olan lisenziya və icazə verən orqanların İqtisadiyyat Nazirliyi tərəfindən sahibkarlıq sahəsində məlumatların vahid Portalda yerləşdirilməsi sahəsində araşdırmalar aparılmışdır. Bununla bağlı tapşırıqların icrasında iştirak edəcək məsul şəxslərə dair məlumatların İqtisadiyyat Nazirliyinə təqdim olunmasına dair 108 quruma məktublar ünvanlanmışdır. Qurumlardan daxil olmuş təkliflər əsasında "Lisenziya və ya icazə verən orqanların lisenziya və ya icazənin, onun dublikatının və əlavəsinin verilməsinin, yenidən rəsmiləşdirilməsinin, dayandırılmasının, bərpasının və ya ləğvinin "Lisenziyalar və icazələr" portalı vasitəsilə həyata keçirilməsini təmin etmək üçün son müddətlər"in, "Lisenziyalar və icazələr" portalına inteqrasiya edilməli olan informasiya sistemlərinin siyahısı və həmin informasiya sistemlərinin portala inteqrasiyası üçün son müddətlər"in |

| | | |
|---|---|---|
| | | və “İnformasiya sistemlərinin “Lisenziyalar və icazələr” portalına inteqrasiyası üçün texniki tələblər”in təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərar layihəsi hazırlanmış və 25.09.17. tarixli İN-X/O-11725/2017 nömrəli məktubla Nazirlər Kabinetinə təqdim edilmişdir.<br>Sahibkarlıq sahəsində 6 xarici ölkədə fəaliyyət göstərən portallar araşdırılmış və həmin portallarda bu sahədə göstərilən elektron xidmətlər, sahibkarların məlumatlandırılması və maarifləndirilməsi, onların elektron qeydiyyatı və sair xidmətlər araşdırılmışdır: Gürcüstan (http://enterprisegeorgia.gov.ge); Yunanıstan (http://www.enterprisegreece.gov.gr); ABŞ (http://www.enterpriseal.gov); Hindistan (http://myenterprisewb.in/home); Avstraliya (https://abr.gov.au); Türkiyə (http://www.kosgeb.gov.tr).<br>Qeyd edilən ölkələrin dövlət portallarında göstərilən elektron xidmət və məlumatların ölkədə yaradılacaq vahid məlumat portalında nəzərə alınması və onun tətbiqinin effektivliyi istiqamətində həyata keçirilmiş işlərin nəticəsi olaraq portalda yerləşdiriləcək xidmətlər, təqdim olunacaq informasiya, maarifləndirmə, əlaqə sahəsində siyahı, vahid məlumat portalına aid (portalın adı, internet səhifəsindən giriş adı, idarəolunması, istifadə zamanı mənfi - müsbət tərəflər və s.) məlumatlar nəzərə alınmaqla vizual görünüş və struktruna dair təkliflərlə bağlı təqdimat hazırlanmışdır.<br>Təqdimatda qeyd olunmuş məlumatlar, beynəxalq təcrübə, o cümlədən, araşdırılmış 6 xarici ölkənin təcrübəsi nəzərə alınmaqla Vahid Məlumat Portalının yaradılması üzrə Konsepsiya (Təkliflər) sənədi və Azərbaycan Respublikası Prezidentinin Sərəncam layihəsi hazırlanmışdır.<br>Vahid Məlumat Portalının Konsepsiya sənədi, təqdimatı və 6 xarici ölkənin təcrübələrinin yaradılacaq portalda tətbiqi məsələləri 27.07.17. tarixində keçirilmiş işçi qrupunun iclasında müzakirə olunmuş və Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin təklifi nəzərə alınaraq Vahid Məlumat Portalının Konsepsiya sənədinə yenidən əlavələr olunmuşdur.<br>Bundan əlavə, ölkəmizdə innovasiya infrastrukturunun inkişafı məqsədilə araşdırmalar aparılmışdır. Bu istiqamətdə “Azərbaycan Respublikasında innovasiya infrastrukturunun formalaşması və inkişafı haqqında Qanun” layihəsi hazırlanmışdır. Qanun layihəsi 3 fəsil, 11 maddədən ibarətdir. Qanun layihəsi razılaşıdırılması üçün Nazirlər Kabinetinə göndərilmişdir. Həmin Qanun layihəsinin qəbulu ölkəmizdə elektron xidmətlərin inkişafına müsbət təsir göstərəcəkdir. |

| | | |
|---|---|---|
| 2. | “Elektron hökumət” portalının imkanları və istifadəsi ilə bağlı vətəndaşlar arasında ictimai maarifləndirmə tədbirlərinin və təqdimatların keçirilməsi (1.3.) | İctimaiyyətin maarifləndirilməsi məqsədilə Nazirlik tərəfindən Bakıda və regionlarında keçirilən treninqlər və görüşlər çərçivəsində İqtisadiyyat Nazirliyi tərəfindən göstərilən elektron xidmətlər və bu xidmətlərdən “Elektron hökumət” portalı vasitəsilə istifadə imkanlarına dair təqdimatlar keçirilmiş, eyni zamanda press-relizlər hazırlanaraq Nazirliyin rəsmi internet saytında yerləşdirilmiş və bu barədə vətəndaşlar və kütləvi informasiya vasitələri məlumatlandırılmışdır. Bundan başqa, Nazirlik tərəfindən göstərilən elektron xidmətlərə və onların “E-hökumət” portalına inteqrasiyasına dair press-relizlər hazırlanaraq, kütləvi informasiya vasitələrində işıqlandırılmışdır. “Elektron hökumət” portalından istifadə qaydaları, vətəndaşların ən çox müraciət etdiyi elektron xidmətlər və informasiya sistemləri üzrə respublikanın müxtəlif şəhərlərində keçirilmiş seminarlarda geniş təqdimatlar edilmişdir.<br>İqtisadiyyat Nazirliyi və tabeliyində olan qurumlar, Sahibkarlığa Kömək Milli Fondu, Bakı Biznes Tədris Mərkəzi, İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti, AZPROMO və digərləri tərəfindən Bakıda və regionlarda keçirilən tədbirlərdə Nazirlik tərəfindən əhaliyə göstərilən elektron xidmətlər və bu xidmətlərin “Elektron hökumət” portalına inteqrasiya olunması barədə məlumat verilmişdir. Bu tədbirlərdə vətəndaşlara “Elektron hökumət” portalından istifadənin üstünlükləri ətraflı izah edilmiş və onlar bu portaldan istifadəyə təşviq olunmuşdur. Bu sahədə görüləcək işlər və əldə oluncaq yeni nəticələr barədə ictimaiyyətin və kütləvi informasiya vasitələrinin məlumatlandırılması mütəmadi olaraq təmin ediləcəkdir. Keçirilən təlimlərdə iştirakçı şəxslərə “Elektron hökumət” infrastrukturu və onun mühüm komponentləri olan vahid portal və elektron imza və digər vacib məsələlərlə yanaşı, informasiya texnologiyaları ilə bağlı ilkin biliklər, kompüterlər və onların proqram təminatları haqqında ümumi məlumatlar verilir.<br>Eyni zamanda, Milli Fəaliyyət Planının müvafiq bəndinin icrası ilə əlaqədar yaradılmış Elektron Monitorinq Sistemində (ems.gov.az) İqtisadiyyat Nazirliyi tərəfindən təşkil olunan tədbirlər, treninqlər, dəyirmi masalar və işgüzar görüşlər barədə mütəmadi olaraq məlumat yerləşdirilmişdir.<br>Bundan əlavə, 20.12.17. tarixində Bakı Biznes Mərkəzində İqtisadiyyat Nazirliyinin təşkilatçılığı ilə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün tələb olunan lisenziyaların və icazələrin elektron qaydada verilməsini təmin edən "Lisenziyalar və icazələr" portalına dair təqdimat keçirilmiş və tədbirdə |

| | | |
|---|---|---|
| | | aidiyyəti dövlət qurumlarının, lisenziya və icazə verən mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, informasiya sistemləri portalına inteqrasiya edilən təşkilatların nümayəndələri, sahibkarlar və mətbuat nümayəndələri iştirak etmişlər. |
| 3. | Elektron xidmətlərin tətbiqi ilə əlaqədar dövlət orqanları tərəfindən tələb edilən rəsmi sənəd və arayışların sayının azaldılmasının təmin edilməsi (1.4.) | Nazirlik tərəfindən göstərilən elektron xidmətlərin daha da təkmilləşdirilməsi və modernləşdirilməsi, Nazirliyin fəaliyyət istiqamətləri üzrə göstərilən yeni dövlət xidmətlərinin elektronlaşdırılması və elektron xidmətlərin tətbiqi ilə əlaqədar tələb olunan rəsmi sənədlərin sayının azaldılması istiqamətində 2017-ci ildə mühüm işlər görülərək, mövcud dövlət xidmətlərinin elektronlaşdırılması, təkmilləşdirilməsi, tam avtomatlaşdırılması və yeni elektron xidmətlərin yaradılması istiqamətində vacib və zəruri addımlar atılmışdır.<br>Hesabat dövründə Milli Fəaliyyət Planının və "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 23.05.11. tarixli 429 nömrəli Fərmanının icrası çərçivəsində İqtisadiyyat Nazirliyinin yeni dövlət xidmətlərinin istifadəyə verilməsi və Nazirlik tərəfindən göstərilməsi nəzərdə tutulan elektron xidmətlərin tam avtomatlaşdırılması istiqamətində tədbirlər davam etdirilmişdir. Bu məqsədlə, müvafiq texniki tapşırığa uyğun olaraq Portalın və hər bir elektron xidmətin proqram təminatı kompleksləri hazırlanmış və xüsusi server avadanlıqlarında yerləşdirilmiş, zəruri sistemlərarası inteqrasiyalar həyata keçirilmiş, texniki təhlükəsizlik məsələlərinin həlli ilə bağlı tələb olunan bütün işlər tamamlanmışdır. Hazırda Nazirliyin aidiyyəti qurumları tərəfindən yeni yaradılmış elektron xidmətlər və ona inteqrasiya edilmiş sistemlərin pilot layihələrinin mərhələli şəkildə vətəndaşların istifadəsinə verilməsi üçün onların funksionallığının yoxlanılması üzrə tədbirlər görülür.<br>"Azərbaycan Respublikası Prezidentinin 20.04.16. tarixli 877 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnvestisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi Qaydası"nda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin Fərmanı layihəsi, "Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı layihəsi və "Normativ hüquqi aktlarda dəyişikliklər edilməsi barədə" İqtisadiyyat |

| | | |
|---|---|---|
| | | Nazirliyinin kollegiyasının Qərarı layihəsi hazırlanmış və hazırda Nazirliyin aidiyyəti strukturları ilə razılaşdırılma mərhələsindədir. Yeni təkliflər əsasında layihələr yenidən işlənərək qısa müddət ərzində aidiyyəti üzrə təqdim olunacaqdır.<br>İqtisadiyyat Nazirliyinin elektron xidmətlərinin funksional imkanlarının artırılması nəticəsində elektron müraciət edənlərin sayı əvvəlki illərə nisbətdə xeyli artmış, müraciətə sərf edilən vaxt minimuma endirilmişdir. Hazırda da Nazirlik tərəfindən aidiyyəti sahələr üzrə elektron xidmətlər şəbəkəsinin genişləndirilməsi və yeni inkluziv layihələrin icrası işləri davam etdirilir.<br>Bundan əlavə, "Lisenziyalar və icazələr" portalı tam fəaliyyətə başladıqdan sonra sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün tələb olunan bütün lisenziya və icazələrin verilməsi tamamilə elektronlaşdırılacaq və tələb edilən rəsmi sənəd və arayışların sayı bir qədər də azalacaqdır.<br>Eyni zamanda, İqtisadiyyat Nazirliyi elektron xidmətlərin təkmilləşdirilməsi sahəsində digər dövlət orqanları ilə birlikdə mühüm işlər görmüşdür. Azərbaycan Respublikası Prezidentinin 11.04.16. tarixli 859 nömrəli Fərmanının 4.1-ci bəndində nəzərdə tutulan "Satınalan təşkilatların ərzaq məhsullarına tələbatı" portalı yaradılmış və istismara verilmişdir.İqtisadiyyat Nazirliyi ilə Dövlət Gömrük Komitəsi arasında malların mənşə sertifikatları üzrə məlumat mübadiləsinin aparılması, o cümlədən sertifikatın elektron versiyanın alınması təmin edilmişdir. Həmçinin elektron xidmətlərin verilənlər bazası strukturu formalaşdırılmış, proqram təminatı hazırlanmış, kateqoriyaların idarə edilməsi, xidmətlərin "Elektron Hökumət" portalının tələblərinə uyğun dizaynda hazırlanması və token servislərə inteqrasiyası təmin edilmişdir. Bundan başqa elektron xidmətlərdən daxil olan müraciətlərin izlənməsi üçün proqramlaşdırılmış admin səhifəsi hazırlanmışdır. Milli Fəaliyyət Planının 1.4-cü bəndinə uyğun olaraq elektron xidmətlərin göstərilmə səviyyəsinin artırılması məqsədi ilə xidmətlərdən istifadə zamanı tələb olunan rəsmi sənədlərin və arayışların minimuma endirilməsinə nail olunmuşdur.<br>"Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər Milli Fəaliyyət Planı"nın müvafiq bəndlərinin dövlət orqanları tərəfindən icrasına nəzarətin təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası tərəfindən "Elektron Monitorinq Sistemi" hazırlanmışdır. Sistem Milli Fəaliyyət Planı üzrə qurumlar tərəfindən görülən işlərin sistemə daxil edilməsi, |

| | | |
|---|---|---|
| | | hesabatların və məlumatların təqdim edilməsi kimi funksionallıqları əhatə edir. Elektron Monitorinq Sisteminin gündəlik fəaliyyətində İqtisadiyyat Nazirliyinin məsul əməkdaşı yaxından iştirak edir. |
| 4. | Dövlət orqanlarının internet səhifələrinin mobil versiyalarının hazırlanması, sosial şəbəkələrdə səhifələrinin açılması və onların aktiv fəaliyyətinin təmin edilməsi (2.4.) | Hazırda İqtisadiyyat Nazirliyinin yeni internet səhifəsinin və saytın mobil versiyasının yaradılması istiqamətində müvafiq texniki işlər aparılır. Eyni zamanda İqtisadiyyat Nazirliyinin müasir adaptiv dizaynlı yeni internet səhifəsi hazırlanıb və hazırda test rejimində fəaliyyət göstərir, yeni saytın mobil versiyası istifadəçilərə informasiyanı daha rahat əldə etməyə imkan yaradacaq. Nazirliyin yeni internet səhifəsi və saytın yeni mobil versiyası 2018-ci ildə istifadəyə verilməsi nəzərdə tutulur. Bununla yanaşı İqtisadiyyat Nazirliyinin "Youtube"da da səhifəsi yaradılmışdır.<br>Bununla belə, hazırda Nazirliyin mövcud internet səhifəsi fəaliyyətini davam etdirir, sayt mütəmadi olaraq yenilənir. İqtisadiyyat Nazirliyinin “Facebook” və “Twitter” sosial şəbəkələrində səhifələri mövcuddur. Nazirliyin fəaliyyəti zamanı yaranan məlumatlar, xüsusilə də vətəndaşlar üçün maraq kəsb edən informasiyalar www.economy.gov.az saytı ilə yanaşı, sosial şəbəkələrdəki səhifələrdə də yerləşdirilir və həmin səhifələr mütəmadi olaraq yenilənir. Eyni zamanda, www.economy.gov.az rəsmi internet saytından sosial şəbəkələrdəki səhifələrə onlayn keçid təmin olunub. Həmçinin, Nazirliyin “Facebook” və “Twitter” səhifələri üzərindən vətəndaşların sualları operativ qaydada cavablandırılır. Hazırda Nazirliyin “Facebook” səhifəsinin istifadəçilərinin sayı 5000-ə yaxındır. Eyni zamanda, Nazirliyin tabeliyində olan qurumlarda da sosial şəbəkələrdə səhifələrin yaradılması təmin edilmiş və hazırda fəaliyyət göstərməkdədir.<br>“İnformasiya əldə etmək haqqında” Qanunun 29-cu maddəsinə müvafiq olaraq, Nazirliyin və onun tabeliyindəki qurumlarının rəsmi internet səhifələrində ictimaiyyətə açıqlanmalı olan məlumatlar, habelə hüquqi xarakterli müxtəlif informasiya, o cümlədən elektron xidmətlər barədə məlumatlar, sahibkarlıq fəaliyyətlərini tənzimləyən qanunvericilik aktları yerləşdirilmiş və mütəmadi olaraq yenilənməsi təmin edilmişdir. İqtisadiyyat Nazirliyinin ictimai nüfuzunun yüksəldilməsi, sahibkar-dövlət münasibətlərinin, sahibkarlığın inkişafı sahəsində və iqtisadi islahatlar çərçivəsində görülmüş işlər barədə ictimaiyyətin məlumatlandırılması üçün hesabat dövründə dövlət və özəl televiziya kanallarında Nazirliyin fəaliyyətini hərtərəfli işıqlandıran press-relizlər, internet saytlarında isə 200-dən artıq |

| | | |
|---|---|---|
| | | müraciət, məqalə və məlumat xarakterli yazılar yerləşdirilmişdir. |
| 5. | Açıq hökumət prinsiplərinin təşviqi və korrupsiyanın qarşısının alınması istiqamətlərində qeyri-hökumət təşkilatlarının layihə və təşəbbüslərinə dəstəyin prioritet istiqamət kimi müəyyən edilməsi (4.1.1.) | Açıq hökumət prinsiplərinin təşviqi, korrupsiya və rüşvətxorluğa qarşı mübarizə çərçivəsində qeyri-hökumət təşkilatlarının layihə və təşəbbüsləri daim dəstəklənmiş, bu istiqamətdə İqtisadiyyat Nazirliyinin səlahiyyətləri daxilində götürülmüş aidiyyəti öhdəliklərin icrası daim diqqət mərkəzində saxlanılmışdır.<br>Hesabat dövründə, Niderland Krallığının Xarici İşlər Nazirliyi tərəfindən maliyyələşdirilən və Avrasiya Əməkdaşlıq Fondu tərəfindən həyata keçirilən "Azərbaycanda İnsan Haqları, Demokratikləşmə və Yaxşı İdarəetmənin Təşviqi" Proqramı çərçivəsində İqtisadi Təşəbbüslərə Yardım İctimai Birliyinin ekspert qrupu tərəfindən hazırlanmış Açıq Hökumət Tərəfdaşlığına aid kitablar dəstinin 18.05.17. tarixində keçirilmiş təqdimat mərasimində, Avrasiya Əməkdaşlıq Fondu və Niderlandın Xarici İşlər Nazirliyinin maliyyə dəstəyi ilə həyata keçirilən “Azərbaycanda insan haqları, demokratikləşmə və yaxşı idarəetmənin təşviqi” proqramı çərçivəsində “Dövlət satınalmalarına ictimai nəzarət sahəsində problemlərin öyrənilməsi və ictimai iştirakçılığın təşviqi”nə dair aparılmış tədqiqatın nəticələri və tövsiyələr, o cümlədən “Dövlət satınalmalarında iştirak edən sahibkarlar nəyi biməlidirlər?”, dövlət qurumlarının elektron inkişaf indeksi 2017” və “Açıq məlumat standartlarının Azərbaycanda tətbiqi vəziyyətinin öyrənilməsi” mövzularında 28-29 sentyabr tarixlərində keçirilmiş təlimlərdə İqtisadiyyat Nazirliyinin nümayəndələrinin iştirakı təmin edilmişdir.<br>“Konstitusiya" Araşdırmalar Fondu və Avrasiya Əməkdaşlıq Fondunun "Vətəndaşların müraciət hüququnun reallaşdırılması mexanizmlərinin təkmilləşdirilməsi" layihəsini icra edir. Layihənin məqsədi vətəndaş müraciətləri ilə bağlı geniş maarifləndirmə tədbirlərini həyata keçirmək, vətəndaş müraciətlərinə baxılması ilə əlaqədar mövcud praktikanın təkmilləşdirilməsi üçün təkliflər hazırlamaqdır. "Konstitusiya" Araşdırmalar Fondunun təklifi ilə Azərbaycan Açıq Hökumət Platformasının 18.10.17. tarixində vətəndaş müraciətlərinə baxılması mövzusunda müzakirələrdə İqtisadiyyat Nazirliyinin nümayəndələri iştirak etmişdir.<br>İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üzrə Antikorrupsiya Şəbəkəsinin 3-cü Monitorinq Raundu çərçivəsində ölkəmiz üzrə verilən tövsiyələrin icrası ilə bağlı |

| | | |
|---|---|---|
| | | qəbul edilmiş hesabatın 20.06.17. tarixində keçirilmiş təqdimatında digər dövlət orqanlarının nümayəndələri, İqtisadiyyat Nazirliyinin nümayəndələri və vətəndaş cəmiyyəti institutlarının birgə iştirakı ilə konfrans keçirilmişdir.<br>Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin "Hüquqpozmalarla bağlı məlumat verən şəxslərin müdafiəsi" mövzusunda 28.02.17. tarixində keçirilmiş seminarda İqtisadiyyat Nazirliyinin nümayəndəsi iştirak etmişdir.<br>Beynəlxalq Standartlaşdırma Təşkilatı (İSO) tərəfindən 2016-cı ilin oktyabr ayında təsdiq edilmiş "Antikorrupsiya idarəetmə sistemi" (İSO: 37001) beynəlxalq standartının ölkəmizdə təşviqi və aidiyyəti dövlət orqanlarının bu standartın tələbləri ilə bağlı maarifləndirilməsi məqsədilə Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi və Britaniya Standartlar İnstitutu tərəfindən 27.04.17. tarixində "İSO: 37001" beynəlxalq standartının tələbləri mövzusunda keçirilmiş təlimdə İqtisadiyyat Nazirliyinin, digər dövlət orqanlarının və vətəndaş cəmiyyəti institutlarının nümayəndələri iştirak etmişdir.<br>Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası 2017-ci il I və II qrant müsabiqəsi çərçivəsində yerli QHT-lər tərəfindən layihə təkliflərinin irəli sürülməsi üçün 01.12.16. və 11.04.17. tarixlərində müsabiqələr elan etmiş, müsabiqələrin nəticələrinə əsasən qalib müəyyən edilərək 484 yerli QHT tərəfindən irəli sürülmüş layihələrin maliyyələşdirilməsi haqqında qərar qəbul edilmişdir. Maliyyələşən layihələr içərisində Açıq hökumətin təşviqi və korrupsiyanın qarşısının alınmasına dair məsələləri, istehlakçıların hüquqlarının qorunması və maarifləndirilməsinə dair təşəbbüsləri, sosial şəbəkələrdə milli və ictimai maraqların müdafiəsinə dair fəaliyyətin dəstəklənməsini əhatə edən layihələr də olmuşdur. Növbəti ildən başlayaraq, qeyri-hökumət təşkilatlarının həmin layihələrinin icrasına dəstək göstərilməsi nəzərdə tutulmuşdur. |
| 6. | İctimai şuraların fəaliyyətinin təşkil edilməsi, gücləndirilməsi və davamlılığının təmin | Əhaliyə xidmət göstərən dövlət orqanları tərəfindən vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın təkmilləşdirilməsi üçün müvafiq şuraların və ya əməkdaşlıq şəbəkələrinin yaradılması, vətəndaş cəmiyyəti institutlarının cəlb edilməsinə dair tapşırıqların icrasının təşkili məqsədilə, Nazirlik tərəfindən Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumu ilə əməkdaşlığa başlanılmış, eləcə də qeyri- |

| | | |
|---|---|---|
| | edilməsi (4.2.1.) | hökumət təşkilatları ilə əməkdaşlığın inkişaf etdirilməsi və Nazirliyin mühüm və zəruri hesab olunan fəaliyyət istiqamətləri üzrə birgə layihələrin icrası üçün Nazirlikdə İctimai-Əməkdaşlıq Şurasının yaradılması nəzərdə tutulmuş və bununla əlaqədar ilkin olaraq İctimai-Əməkdaşlıq Şurasının reqlamenti, İqtisadiyyat Nazirliyində İctimai-Əməkdaşlıq Şurasının fəaliyyətini tənzimləyən əmr layihəsi və Şuraya üzvlərin seçilməsinə dair nümunəvi elanın forması hazırlanmış, eyni zamanda, “İctimai iştirakçılıq haqqında” Azərbaycan Respublikası Qanununa əsasən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30.05.14. tarixli 171 nömrəli qərarı ilə təsdiq edilmiş “İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə” ilə ictimai şuranın yaradılması və ictimai şuraya üzvlərin vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsi qaydaları müəyyən edilmişdir. “İctimai iştirakçılıq haqqında” Azərbaycan Respublikası Qanununun və “İctimai iştirakçılıq haqqında” Azərbaycan Respublikasının Qanununun tətbiqi barədə” 16.01.14. tarixli 89 nömrəli Fərmanının tələblərinə uyğun olaraq İqtisadiyyat Nazirliyi yanında ictimai şura yaradılacağı təqdirdə “İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə”nin tələblərinə əsasən müvafiq işlər görüləcəkdir.<br>Həmçinin bu istiqamətdə qeyri-hökumət təşkilatları ilə əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə “Şəffaflıq-Azərbaycan” Korrupsiyaya qarşı Mübarizə İctimai Birliyi, “Konstitusiya Araşdırmalar Fondu” və digər vətəndaş cəmiyyəti institutları ilə, həmçinin, Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun nümayəndələri ilə mütəmadi görüşlər təşkil edilir və onların təşkil etdiyi tədbirlərdə f’al iştirak edilir. |
| 7. | İctimai şuraların tərkibi və fəaliyyəti ilə bağlı rəsmi internet resurslarında ayrıca bölmələrin yaradılması və məlumatların mütəmadi yenilənməsi | “İctimai iştirakçılıq haqqında” Azərbaycan Respublikası Qanununun və “İctimai iştirakçılıq haqqında” Azərbaycan Respublikasının Qanununun tətbiqi barədə” 16.01.14. tarixli 89 nömrəli Fərmanının tələblərinə uyğun olaraq İqtisadiyyat Nazirliyinin yanında ictimai şura yaradılacağı təqdirdə “İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə”nin tələblərinə əsasən müvafiq işlər görüləcək və ictimai şuranın tərkibi və fəaliyyəti ilə bağlı Nazirliyin rəsmi internet resurslarında ayrıca bölmənin yaradılması təmin ediləcəkdir. |

| | | |
|---|---|---|
| | (4.2.2.) | |
| 8. | İstehlakçıların hüquqlarının qorunması məqsədi ilə ictimai nəzarət mexanizmlərinin hazırlanması, bu məqsədlə yaradılmış qaynar xəttin fəaliyyətinin təkmilləşdirilməsi və bununla bağlı maarifləndirmə tədbirlərinin həyata keçirilməsi (4.2.3.) | İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin fəaliyyət göstərən "Qaynar xətt" bölməsi vasitəsilə vətəndaşların istehlakçı hüquqlarına aid olan məsələlərlə bağlı telefon müraciət imkanları daha da genişləndirilmişdir. Xidmətin qaynar xəttinin işinin təkmilləşdirilməsi ilə bağlı təkliflər, o cümlədən qaynar xəttin canlı rejimdə fəaliyyət göstərmədiyi vaxtlarda səsli menyu vasitəsilə müraciət edənlərə xidmət göstərilməsi, növbəti iş saatlarında əks əlaqə yaradılması üçün zəng sifarişi etmək imkanının təklif edilməsi və növbəti iş günü əks əlaqə yaradılaraq müvafiq xidmətin göstərilməsi, həmçinin qaynar xətt vasitəsilə aparılan telefon danışıqlarının qeydə alınması və bu barədə müraciət edən şəxslərə əvvəlcədən məlumat verilməsi, müraciət edən şəxsin qeydə alınmış danışığın səs yazısının elektron daşıyıcıda olan surətini yazıldığı gündən 3 ay ərzində əldə etmək imkanı yaradılmışdır.<br>Hesabat dövründə canlı rejimdə fəaliyyət zamanı xidmətin keyfiyyətinin ölçülməsi və yüksəldilməsi, təmsilçilərin yol verdiyi nöqsanların aşkarlanması və gələcəkdə təkrarlanmaması məqsədi ilə monitorinqlər keçirilmiş, həmçinin qaynar xətt təmsilçilərinin peşə hazırlığının yüksəldilməsi məqsədilə praktiki məşğələlərdən ibarət təlimlər təşkil olunmuşdur. Bu istiqamətdə görülən işlər gələcəkdə də davam etdiriləcəkdir.<br>Vətəndaşlardan (istehlakçılardan) müraciətlərin operativ qaydada qəbul olunması və müvafiq tədbirlərin həyata keçirilməsi məqsədi ilə Dövlət Xidmətində ayrılmış iki telefon nömrəsinə şikayət və təkliflərini bildirmələri müxtəlif vasitələrlə ictimaiyyətin nəzərinə çatdırılmışdır. Bundan əlavə, bu məqsədlə İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin elektron poçt ünvanının (office@consummer.gov.az) və internet səhifəsinin (www.consummer.gov.az) fasiləsiz fəaliyyəti təmin edilmişdir.<br>İstehlakçıların hüquqlarının qorunmasında ictimai nəzarətin gücləndirilməsi və ictimaiyyətin iştirakının təmin edilməsi məqsədilə İqtisadiyyat Nazirliyinin "195-2" Çağrı Mərkəzinin yaradılması vətəndaşların İqtisadiyyat Nazirliyinin səlahiyyətlərinə aid olan məsələlərlə bağlı müraciət imkanlarını sadələşdirmişdir. |

| | | |
|---|---|---|
| | | Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25.02.15. tarixli 50 nömrəli Qərarı ilə "Dövlət orqanlarında çağrı mərkəzlərinin fəaliyyətinin təşkili Qaydaları" təsdiq edilmişdir. Həmin Qaydalara əsasən Çağrı Mərkəzi dövlət orqanında qanunçuluğun təmin edilməsi, müraciətlərin obyektiv araşdırılması və cavablandırılması, sui-istifadə əməllərinin qarşısının alınması, fəaliyyətin təkmilləşdirilməsi üçün təhlillərin aparılması və vətəndaş məmnunluğunun təmin edilməsi məqsədi ilə təşkil olunur. Çağrı Mərkəzinin təyinatı təmsil etdiyi dövlət orqanının fəaliyyəti ilə bağlı (orqanın səlahiyyətlərinə dair) sualların (sorğuların, o cümlədən elektron xidmətlərin göstərilməsi ilə bağlı müraciətlərin) birbaşa və ya araşdırıldıqdan sonra cavablandırılmasından, məlumatlandırma və məsləhət xidməti göstərilməsindən şikayətlərin (məlumatların, təkliflərin) qəbulu və yönəldilməsindən ibarətdir.<br>Ölkəmizdə sahibkarlığın inkişafına dövlət himayəsinin sistemli şəkildə həyata keçirilməsini gücləndirmək, dövlət-sahibkar münasibətlərini daha da təkmilləşdirmək, özəl sektorun inkişaf etdirilməsi, sahibkarlar tərəfindən edilən müraciətlərin cavablandırılmasında sistemlilik yaratmaq, operativliyə nail olmaq üçün digər dövlət orqanlarında, o cümlədən İqtisadiyyat Nazirliyində 195-2 Çağrı Mərkəzi yaradılmışdır. İqtisadiyyat Nazirliyinin Çağrı Mərkəzi "195-2" prefiks nömrəsi ilə 1 sentyabr 2009-cu il tarixdən rəsmən fəaliyyət göstərir və ölkənin bütün regionlarını əhatə edir. 2009-cu ilin 1 sentyabr tarixindən 2017-ci ilin 1 dekabr tarixinədək Mərkəzə 71968, o cümlədən 2017-ci ilin 11 ayı ərzində 10024 müraciət daxil olmuş və cavablandırılmışdır.<br>Hesabat dövründə, İstehlakçıların hüquqlarının qorunması sahəsində bir çox tədbirlər həyata keçirilmişdir. İstehlakçıların maarifləndirilməsi məqsədi ilə aidiyyəti dövlət orqanlarının, ictimai təşkilatların, ictimaiyyətin və kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı ilə Ağdaş, Abşeron, Qobustan, Zərdab, Qax və Goranboy rayonlarında "Hər bir istehlakçı öz hüquqlarını bilməli və tələb etməlidir" mövzusunda konfranslar, 15 mart ümumdünya istehlakçıların hüquqlarının müdafiəsi günü ilə bağlı isə Bakı şəhərində "Düzgün məlumat-istehlakçının seçim hüququnun təminatıdır!" mövzusunda dəyirmi masa keçirilmişdir. Keçirilmiş konfranslarda istehlakçı hüquqlarının qorunması sahəsində mövcud vəziyyət və qarşıda duran vəzifələr, istehlakçıların keyfiyyətli və təhlükəsiz mallarla |

| | | |
|---|---|---|
| | | təmin edilməsində, qüsurlu mal satılarkən istehlakçıların hüquqlarının təmin edilməsində və mövcud ticarət qaydalarına əməl edilməsində sahibkarların vəzifələri, istehlakçıların hüquqlarının pozulmasına görə məsuliyyət və s. kimi aktual məsələlər müzakirə olunmuşdur. 15 mart ümumdünya istehlakçıların hüquqlarının müdafiəsi gününə həsr olunmuş dəyirmi masada istehlakçıların hüquqlarının müdafiəsi vəziyyəti müzakirə olunmuş, istehlakçıların hüquqlarının müdafiəsində məlumat almaq və sərbəst seçim hüquqlarının əhəmiyyəti barədə məlumat verilmiş, yerli və beynəlxalq təşkilatların, sahibkarlıq subyektlərinin nümayəndələrinin istehlakçı hüquqlarının qorunması istiqamətində fəaliyyətin səmərəliliyinin artırılması ilə bağlı təklifləri dinlənilmiş, bu sahədəki problemlərin aradan qaldırılması, istehlakçıların hüquqlarının daha etibarlı və effektli müdafiəsi sahəsində həyata keçirilən tədbirlər və qarşıda duran vəzifələr ətrafında geniş fikir mübadiləsi aparılmışdır.<br>Yetişməkdə olan gənc nəslin maarifləndirilməsi məqsədilə 2017-ci il ərzində Bakı İslam Universitetində, Bakı Musiqi Akademiyasında, Sumqayıt Dölət Texniki Kollecində, Azərbaycan Dövlət İqtisad Universitetində və Bakı Dövlət İqtisadiyyat və Humanitar Kollecində tələbə və müəllim heyətinin iştirakı ilə “İstehlakçı hüquqlarının müdafiəsi prioritet vəzifəmizdir” mövzusunda seminar keçirilmişdir. Seminarda istehlakçı hüquqları barədə ətraflı məlumatlar verilmiş, bu sahədə dövlət orqanları ilə istehlakçılar arasında əlaqələrin genişləndirilməsinin əhəmiyyəti vurğulanmış, tələbələrin istehlakçı hüquqları ilə bağlı sualları cavablandırılmışdır. Təsərrüfat subyektlərini və istehlakçıları maarifləndirmək məqsədi ilə ticarət qaydalarına əməl olunması ilə bağlı 10 maarifləndirici məlumat 560 mindən artıq elektron ünvan sahibinin elektron ünvanına göndərilmişdir. İstehlakçıların maarifləndirilməsi məqsədilə istehlakçı hüquqlarına dair 18 adda 20 mindən artıq buklet, 6 adda 1500-dən artıq yaddaş kitabçası çap olunmuş və paylanmışdır. Bundan başqa istehlakçıların maarifləndirilməsi məqsədilə gündəlik istehlakda geniş istifadə olunan müxtəlif ərzaq və qeyri-ərzaq məhsullarının istehlak xassələri və mal alarkən istehlakçıların nələrə diqqət etməsi, o cümlədən ticarət, ictimai iaşə və digər xidmət sahələrində istehlakçıların bilməli olduqları məsələlərlə bağlı 38 adda maarifləndirici məlumat müxtəlif kütləvi informasiya vasitələrində yayımlanmışdır. Dövlət Xidmətinə 2017-ci ilin yanvar-noyabr ayları ərzində istehlakçı hüquqları ilə bağlı ümumilikdə 3726 müraciət daxil |

| | | |
|---|---|---|
| | | olmuşdur. 2016-cı ildən baxılması davam edən 314 müraciətdə nəzərə alınmaqla hesabat dövründə ümumilikdə 4040 müraciətə baxılmışdır. İstehlakçı hüquqları ilə bağlı baxılmış 4040 müraciət üzrə 1657 halda müraciət təmin olunmuş, 98 halda araşdırma aparılmış və ərizələrdə qeyd olunan faktlar aşkar edilməmiş, 1514 halda vətəndaşlara qanunamüvafiq izahat və tövsiyə verilmiş, 224 halda ərizə baxılması üçün aidiyyəti orqanlara göndərilmiş, 93 halda aidiyyəti üzrə müraciət etmələri tövsiyə olunmuş, 53 halda zəruri sənədlər təqdim edilmədiyindən müraciətə baxılması dayandırılmış, 48 halda müraciət işə alınmış, 353 müraciət üzrə araşdırmalar davam etdirilir.<br>İstehlak bazarında satılan məhsulların laborator müayinələri nəticəsində keyfiyyət və təhlükəsizlik göstəricilərində normativ sənədlərlə müqayisədə kənarlaşmalar aşkar edilmiş məhsullarla bağlı təsərrüfat subyektlərinə müvafiq tələbnamələr göndərilmişdir. Təsərrüfat subyektləri tərəfindən insanların həyat və sağlamlığına təhlükə yaradan malların satışının qarşısının alınması ilə bağlı müvafiq tədbirlər görülmüş və nöqsanlar aradan qaldırılmışdır. İstehlak bazarında dövriyyədə olan malların etiket göstəricisinin texniki-normativ hüquqi aktlara uyğunluğunun araşdırılması nəticəsində kənarlaşma aşkar edilmiş 26 müəssisəyə, o cümlədən, kolbasa və sosiska məmulatları üzrə 3, spirtli içkilər üzrə 17, süd və süd məhsulları üzrə 5, şəkər və qənnadı məhsulları üzrə 1 müəssisəyə müvafiq göstərişlər verilmişdir. Bunlardan 20 təsərrüfat subyekti tərəfindən məhsulların markalanmasının mövcud qanunvericiliyin tələblərinə uyğunlaşdırılması təmin edilmiş, digərləri ilə bağlı işlər davam etdirilir.<br>Eyni zamanda, İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Müdafiəsi Dövlət Xidmətinin rəhbər şəxsləri və əməkdaşları tərəfindən hesabat dövrü ərzində mütəmadi olaraq istehlakçıların hüquqlarının müdafiəsi, yaxud hər hansı hüquqi yardım almaq üçün müraciət etmiş vətəndaşlarla görüşlər keçirilmiş, onların hüquqlarının müdafiəsi ilə bağlı zəruri tədbirlərin görülməsi ilə yanaşı, hüquqi maarifləndirmə işləri də aparılmışdır.<br>İqtisadiyyat Nazirliyinin tabeliyində olan “İstehlak Mallarının Ekspertizası Mərkəzi” MMC tərəfindən 2017-ci il ərzində 5000 sayda məhsul nümunəsi üzrə laborator müayinə aparılmış və müayinələrin nəticələri barədə aidiyyəti dövlət qurumlarına məlumat verilmişdir. Aparılmış müayinələr nəticəsində |

| | | |
|---|---|---|
| | | keyfiyyət göstəricilərində kənarlaşma aşkar edilmiş 100-dən çox məhsul üzrə pozuntuya yol vermiş təsərrüfat subyektlərinə pozuntuların aradan qaldırılmasına dair Antiinhisar Siyasəti və İstehlakçıların Müdafiəsi Dövlət Xidməti tərəfindən müvafiq göstərişlər verilmiş, təhlükəsizlik göstəricilərində kənarlaşma aşkar edilmiş təsərrüfat subyektləri barədə aidiyyəti üzrə nəzarət tədbirlərinin gücləndirilməsi məqsədi ilə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Respublika Gigiyena Epidemiologiya Mərkəzinə müvafiq məlumat verilmişdir. |
| 9. | Səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və büdcə təşkilatlarının illik maliyyə fəaliyyəti, o cümlədən dövlət büdcəsindən ayrılmış vəsaitdən və ya onlara verilmiş əmlakdan istifadə ilə bağlı məlumatların internet səhifələrində dərc edilməsi ilə əlaqədar qanunvericiliyin təkmilləşdirilməsi və bu hesabatların dərc edilməsinə nəzarətin gücləndirilməsi (5.5) | Səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və büdcə təşkilatlarının illik maliyyə fəaliyyəti, o cümlədən dövlət büdcəsindən ayrılmış vəsaitdən və ya onlara verilmiş əmlakdan istifadə ilə bağlı məlumatların internet səhifələrində dərc edilməsi ilə əlaqədar aidiyyəti üzrə müvafiq tapşırıqlar verilmişdir. İqtisadiyyat Nazirliyi tərəfindən satın alınacaq mallar və xidmətlər barədə məlumatlar hər il mütəmadi olaraq internet səhifələrində yerləşdirilir. Nazirlik tərəfindən 2017-ci ildə həyata keçirilməsi planlaşdırılan satınalmalar barədə məlumatlar carı ilin əvvəlində tender.gov.az internet səhifəsində yerləşdirilmişdir. Nazirliyin illik maliyyə fəaliyyəti, o cümlədən dövlət büdcəsindən ayrılmış vəsaitdən və ya onlara verilmiş əmlakdan istifadə ilə bağlı müvafiq məlumatların internet səhifələrində dərc edilməsi ilə əlaqədar təşkilati-inzibati işlər və əməli-texniki prosedurlar tamamlandıqdan sonra internet səhifəsində yerləşdirilməsi təmin ediləcəkdir. |
| 10. | Büdcə təşkilatları | İqtisadiyyat Nazirliyi tərəfindən satın alınacaq mallar və xidmətlər barədə məlumatlar, elanlar, bildirişlər |

| | | |
|---|---|---|
| | tərəfindən dövlət satınalmaları ilə bağlı məlumatların internet səhifələrində yerləşdirilməsi (5.6) | və nəticələri hər il mütəmadi olaraq internet səhifələrində yerləşdirilir. Nazirlik tərəfindən 2017-ci ildə həyata keçirilməsi planlaşdırılan satınalmalar barədə məlumatlar cari ilin əvvəlində tender.gov.az internet səhifəsində yerləşdirilmişdir.<br>“Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri və Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 25.12.2009-cu il tarixli 203 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 28.04.16. tarixli 888 nömrəli Fərmanının 4.1-ci bəndinin icrası olaraq “Dövlət satınalmaları haqqında” yeni qanun layihəsi hazırlanmış və aidiyyəti dövlət qurumları ilə razılşadırılmışdır.<br>Hazırlanan qanun layihəsində kotirovka sorğusu prosedurları ilə keçirilən satınalmaların yalnız kiçik və orta sahibkarlıq subyekti olan malgöndərənlərdən (podratçılardan) təklifləri cəlb etməklə təşkili nəzərdə tutulmuşdur. Sözügedən qanun layihəsi İqtisadiyyat Nazirliyinin 03.08.17. tarixli İN-X/O-9821/2017 nömrəli məktubu ilə Nazirlər Kabinetinə təqdim edilmişdir.<br>Yeni qanun layihəsində büdcə təşkilatları tərəfindən dövlət satınalmaları ilə bağlı məlumatların elektron qaydada yerləşdirilməsi ilə bağlı müddəalar da nəzərdə tutulmuşdur. |
| 11. | “ASAN xidmət” mərkəzlərində rəhbər tutulan fəaliyyət prinsipləri və şəffaflıq standartlarının dövlət orqanlarında tətbiqi ilə bağlı tədbirlərin həyata keçirilməsi (8.6.) | “ASAN xidmət” mərkəzlərində rəhbər tutulan fəaliyyət prinsipləri və şəffaflıq standartlarının İqtisadiyyat Nazirliyində tətbiqi ilə bağlı cari ildə də təhlillər aparılmış və “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyində təlimlərin keçirilməsi qaydaları”, “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyində yeni xidmətə qəbul edilmiş əməkdaşların adaptasiya qaydaları” və “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin daxili nizam-intizam Qaydaları”nın İqtisadiyyat Nazirliyində tətbiqi ilə bağlı hüquqi-təşkilati işlər görülmüş və qeyd olunan hüquqi aktların növbəti ildə qanunvericilikdə nəzərdə tutulmuş qaydada təsdiq edilməsi təmin ediləcəkdir. Eyni zamanda, Dövlət Agentliyi ilə birgə İqtisadiyyat |

| | | |
|---|---|---|
| | | Nazirliyinin göstərdiyi elektron xidmətlərin təkmilləşdirilməsi, lisenziya və icazələrin verilməsi və digər dövlət xidmətlərinin fəaliyyətlərinin dövrün çağırışlarına uyğun təmin edilməsi məqsədilə mütəmadi olaraq işlər görülür.<br>Bununla əlaqədar, Azərbaycan Respublikası Prezidentinin “Lisenziyalaşdırma sahəsində bəzi tədbirlər haqqında” 21.12.15. tarixli Fərmanı ilə “Lisenziyalaşdırma Qaydası”, “Lisenziya tələb olunan fəaliyyət növlərinin (dövlət təhlükəsizliyindən irəli gələn hallar istisna olmaqla) siyahısı və həmin fəaliyyət növlərinə lisenziya verilməsinə görə ödənilən dövlət rüsumunun məbləğləri”, “Dövlət təhlükəsizliyindən irəli gələn hallarla əlaqədar lisenziya tələb olunan fəaliyyət növlərinin siyahısı və həmin fəaliyyət növlərinə lisenziya verilməsinə görə ödənilən dövlət rüsumunun məbləğləri” və “Naxçıvan Muxtar Respublikasının icra hakimiyyəti orqanları tərəfindən lisenziya verilən fəaliyyət növlərinin siyahısı” təsdiq edilmişdir. Sözügedən Fərmana əsasən lisenziyalaşdırılan fəaliyyət növlərinin sayı 59-dan 37-yə (o cümlədən 4 dövlət təhlükəsizliyindən irəli gələn hallar) endirilmişdir ki, ləğv edilmiş 22 fəaliyyət növü üzrə verilmiş lisenziyalar qüvvədə olan ümumi lisenziyaların 75 faizini təşkil etmişdir. Həmçinin bütün lisenziyalar, o cümlədən qüvvədə olan müddətli lisenziyalar müddətsiz müəyyən edilmiş, lisenziyanın verilməsinə görə ödənilən dövlət rüsumunun məbləği 2 dəfə azaldılmış, lisenziya verən dövlət orqanlarının sayı 23-dən 4-ə endirilmiş, lisenziyaların verilməsi müddəti 15 gündən 10 iş gününə azaldılmış, lisenziya verilməsi üçün tələb olunan prosedurlar əhəmiyyətli dərəcədə sadələşdirilmişdir. Həmçinin icazələrin sayı 330-dan 86-a endirilmişdir.<br>Bununla əlaqədar, lisenziyalar “ASAN xidmət” mərkəzlərində rəhbər tutulan fəaliyyət prinsipləri və şəffaflıq standartları nəzərə alınmaqla 21.12.15 tarixindən etibarən İqtisadiyyat Nazirliyi tərəfindən “ASAN xidmət” mərkəzlərində verilir. Sahibkarların vaxt itkisi və əlavə sənədləşmə işləri ilə qarşılaşmamaları üçün lisenziya almaq istəyən sahibkarlar üçün İqtisadiyyat Nazirliyinin əməkdaşları tərəfindən “ASAN xidmət” mərkəzlərində məsləhət xidmətləri göstərilməkdədir.<br>İqtisadiyyat Nazirliyi və Dövlət Agentliyinin birgə icraçı olduğu layihə olan “Lisenziyalar və icazələr” portalı test rejimində artıq fəaliyyətə başlamışdır. Portalın tam fəaliyyətə başlaması nəticəsində sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün tələb olunan bütün lisenziya və icazələrin verilməsi |

| | | |
|---|---|---|
| | | tamamilə elektronlaşdırılacaq və tələb edilən rəsmi sənəd və arayışların sayı bir qədər də azalacaqdır.<br>Bundan əlavə, İqtisadiyyat nazirinin 07.03.17. tarixli F-40 nömrəli əmrinə əsasən Nazirliyin strukturlarının əməkdaşları üçün 18.08.17. tarixində “ASAN xidmət” mərkəzlərində rəhbər tutulan fəaliyyət prinsipləri və şəffaflıq standartlarının dövlət orqanlarında tətbiqi” mövzusunda treninq təşkil edilmişdir.<br>Dövlət Agentliyi ilə birgə İqtisadiyyat Nazirliyinin göstərdiyi elektron xidmətlərin daha da təkmilləşdirilməsi istiqamətində işlər görülür. “ASAN xidmət” mərkəzlərində rəhbər tutulan fəaliyyət prinsipləri və şəffaflıq standartlarının tətbiqi ilə bağlı İqtisdiyyat Nazirliyində treninqlərin keçirilməsi ilə bağlı Dövlət Agentliyinə məktub göndərilmiş və növbəti ildə treninqlərin keçirilməsi nəzərdə tutulmuşdur. |
| 12. | Sahibkarların qarşılaşdıqları problemlərin həlli məqsədi ilə onların müraciətlərinə baxılması işinin təkmilləşdirilməsi və müvafiq tədbirlərin görülməsi (8.7.) | Ölkənin davamlı sosial-iqtisadi inkişafında mühüm əhəmiyyət kəsb edən sahibkarlığın, o cümlədən kiçik və orta sahibkarlığın inkişafının stimullaşdırılması, sahibkarlar üçün daha əlverişli şəraitin yaradılması, iqtisadiyyatın diversifikasiyası, ölkə iqtisadiyyatında rəqabətqabiliyyətliyin, inkluzivliyin, dayanıqlılığın, iqtisadi aktivliyin təmin edilməsi, yeni iş yerlərinin açılması, qeyri-neft sektorunun inkişafı, müasir dövrün tələblərinə cavab verən tənzimləmə siyasətinin həyata keçirilməsi qarşıya qoyulmuş əsas vəzifələrdəndir. Yeni inkişaf mərhələsində olan ölkə iqtisadiyyatında sahibkarların rolunun daha da artırılması, sahibkarlığın inkişafına kompleks dövlət dəstəyi tədbirlərinin davam etdirilməsi, eləcə də onların qarşılaşdıqları problemlərin operativ həll edilməsi və bu istiqamətdə sahibkar məmnunluğuna nail olunması Nazirliyin əsas prioritet istiqamətlərindəndir.<br>Hesabat dövründə İqtisadiyyat Nazirliyi tərəfindən sahibkarların qarşılaşdıqları problemlərin həlli məqsədi ilə onların müraciətlərinə baxılması işi daha da təkmilləşdirilmiş və sahibkarlarla birbaşa əlaqədə olan Nazirliyin bütün struktur bölmələri tərəfindən sahibkarlardan daxil olmuş müraciətlərə baxılması zamanı qanunvericiliyin tələblərinə mütləq qaydada əməl edilmişdir.<br>Eyni zamanda, Nazirliyə müraciət edən vətəndaşların və sahibkarların əlavə vaxt itkisinin qarşısını almaq məqsədilə, Nazirliyin rəsmi saytında elektron izahat modulu yaradılmışdır. Həmin modul vasitəsilə müraciətlərə dair əlavə izahat və ya əsaslandırma tələb olunduğu hallarda, müraciətçilərin |

| | | |
|---|---|---|
| | | Nazirliyə gəlmələrinə ehtiyac olmadan modul vasitəsiylə öz izahatlarını və əlavə qeydlərini yazırlar. Hesabat dövründə sahibkarlıq fəaliyyəti ilə bağlı Nazirliyin Sahibkarlığın inkişafı şöbəsinə daxil olmuş müraciətlərin ümumi sayı 571 ədəd təşkil etmişdir ki, bunun da 452-i bilavasitə vətəndaşların, qalan 119-u isə hüquqi şəxslərin payına düşür. Yanvar ayı üzrə daxil olmuş müraciətlərin sayı 70 ədəd, fevral ayı üzrə 52 ədəd, mart ayı üzrə 59 ədəd, aprel ayı üzrə 58 ədəd, may ayı üzrə 43 ədəd, iyun ayı üzrə isə 46 ədəd, iyul ayı üzrə 50 ədəd, avqust ayı üzrə 39 ədəd, sentyabr ayı üzrə 49 ədəd, oktyabr ayı üzrə 59, noyabr ayı üzrə 46 ədəd olmuşdur. Müraciətlərin araşdırılması zamanı şikayətçilər ətraflı dinlənilmiş və onların müraciətləri ayrı-ayrılıqda cavablandırılmışdır.<br>“Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə riayət edilməsinə nəzarətin təmin olunması məqsədilə İqtisadiyyat Nazirliyinə daxil olmuş müraciətlər daim diqqət mərkəzində saxlanılmış və 2017-ci il ərzində daxil olmuş müraciətlərə sözügedən Qanunun tələblərinə uyğun olaraq baxılması təmin edilmişdir. Belə ki, Bakı şəhəri üzrə müraciət edən vətəndaşlar İqtisadiyyat Nazirliyində, regionlar üzrə müraciət edən vətəndaşlar isə Nazirliyin regional bölmələrində qəbul olunmuşlar.<br>“Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə riayət edilməsinə nəzarətin təmin olunması məqsədilə Nazirliyə daxil olmuş müraciətlər daim diqqət mərkəzində saxlanılmışdır.<br>Bundan əlavə, Vergilər Nazirliyindən İqtisadiyyat Nazirliyinə daxil olmuş məlumatlar əsasında fəaliyyətlərinin dayandırılmasını və ya ləğv edilməsini digər səbəblər kimi göstərmiş sahibkarlıq subyektlərinin mobil telefonlarına SMS-lər göndərilərək, fəaliyyətlərinin bərpasına köməklik göstərilməsi üçün Nazirliyin 195-2 Çağrı Mərkəzinə müraciət etmələri tövsiyə olunmuşdur. Bununla əlaqədar, Nazirliyin Çağrı Mərkəzinə müraciət edən sahibkarlara son dövrlərdə həyata keçirilən islahatlar və dəstək mexanizmləri barədə ətraflı məlumat verilərək, şikayət xarakterli hər bir müraciət üzrə şikayət vərəqələri tərtib edilərək icraata götürülmüş və “Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq baxılmışdır.<br>Azərbaycan Respublikası Prezidentinin 16.03.17. tarixli Fərmanı ilə “Sahibkarlıq sahəsində aparılan |

| | | |
|---|---|---|
| | | yoxlamaların vahid məlumat reyestrinin forması və aparılması qaydası haqqında Əsasnamə"də edilmiş dəyişikliklər nəticəsində reyestrdə toplanmış informasiyanın dairəsi genişləndirilmiş, qeydiyyat işinin avtomatlaşdırılmasına, sahibkarlara yoxlamalarla bağlı dolğun məlumatların verilməsinə və daha ətraflı təhlillər aparılmaqla iqtisadi proseslərə təsir edən amillərin dəqiq qiymətləndirilməsinə zəmin yaranmışdır. Reyestrin səmərəliliyinin artırılmasına xidmət edən bu yeniliklərin tətbiqi məqsədi ilə Ədliyyə Nazirliyi tərəfindən informasiya sisteminin yeni versiyası hazırlanaraq Vergilər Nazirliyinin müvafiq informasiya resursu ilə inteqrasiyası təşkil olunmuş və istifadəyə verilmişdir. Hazırda yeni informasiya sisteminin inkişafı üzrə işlər davam etdirilir.<br>Sahibkarlıq fəaliyyətinin davamlı olaraq yaxşılaşdırılması və inkişafının təmin edilməsi, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Qanundan irəli gələn məsələlərin yoxlayıcı orqanlara izah edilməsi məqsədilə 07.07.17. və 14.07.17. tarixlərdə Yevlax və Xaçmaz şəhərlərində təlimlər keçirilmişdir. İqtisadiyyat və Ədliyyə nazirliklərinin, habelə Sahibkarlar Təşkilatları Milli Konfederasiyasının, yerli icra hakimiyyəti orqanlarının nümayəndələri və sahibkarların iştirakı ilə keçirilən tədbirlərdə yoxlamaların elektron uçotu, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestri"nin məqsəd və prinsipləri, əhəmiyyəti, yoxlamaların dayandırılması məsələləri, habelə sahibkarlıq sahəsində aparılan yoxlamalarla bağlı qanunvericilik aktları və son dövrdə aparılan islahatlar barədə məlumatlar verilmişdir. Müvafiq dövr ərzində sahibkarların peşə assosiasiyası olan, habelə iqtisadi inkişaf və sahibkarlarlığın təşviqi ilə bağlı 5 ictimai birlik dövlət qeydiyyatına alınmışdır. Hüquqi şəxslərin dövlət qeydiyyatı işinin təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 14.12.16. tarixli 1153 nömrəli Fərmanına əsasən publik hüquqi şəxslərə münasibətdə dövlət qeydiyyatını həyata keçirən orqan kimi Vergilər Nazirliyi müəyyən edilmişdir. Eyni zamanda, həmin Fərmanın 6-cı hissəsinə əsasən dövlət qeydiyyatına alınmış təhsil müəssisələri barədə reyestrdə olan aidiyyəti məlumatlar və qeydiyyat sənədləri 27.02.17. tarixdə Vergilər Nazirliyinə təhvil verilmişdir. Həmçinin, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına uyğun olaraq, Azərbaycan Respublikasının iqtisadiyyat naziri tərəfindən Azərbaycan Respublikasının Prezidenti |

| | | |
|---|---|---|
| | | Administrasiyasının müəyyən etdiyi reqlament əsasında 20.05.17. Goranboyda 3 şəhər və 1 rayon (Gəncə, Naftalan, Xocalı şəhərləri və Goranboy) üzrə, 21.07.17. tarixində Xırdalan şəhərində 2 rayon və 1 şəhər (Abşeron, Qubadlı rayonları və Sumqayıt şəhəri) üzrə, 31.08.17. tarixində Astara şəhərində 3 rayon (Lənkəran, Lerik və Astara rayonları) üzrə, 21.10.17. tarixində Ağdaş şəhərində 3 rayon (Göyçay, Ucar və Ağdaş rayonları) üzrə, 17.11.17. tarixində Biləsuvar şəhərində 4 rayon (Salyan, Neftçala, Biləsuvar və Cəbrayıl rayonları) üzrə, 22.12.17. tarixində Beyləqan rayonunda vətəndaşların qəbulu həyata keçirilmişdir. Nazirliyin aidiyyəti struktur bölmələrinin rəhbərlərinin iştirakı ilə keçirilmiş qəbullarda nazir Şahin Mustafayev qəbula gələn vətəndaşların müraciətlərini dinləyib, müraciətlərdə qaldırılan məsələlərin bir hissəsi yerindəcə öz həllini tapıb, digər müraciətlərin operativ araşdırılması və həlli üçün Nazirliyin müvafiq struktur bölmələrinə konkret tapşırıqlar verib. Qəbul günləri digər rayonlardan olan vətəndaşlar da nazir tərəfindən qəbul edilib, hər bir vətəndaşın müraciətinə diqqətlə yanaşılıb, müraciətlərin operativ həlli üçün qanunvericiliyə uyğun olaraq müvafiq tədbirlər görülüb.<br>Eyni zamanda, hesabat dövründə ölkəmizdə sahibkarlığın şaxələndirilməsi, dəstəklənməsi və inkişafı istiqamətində mühüm addımlar atılmışdır. Belə ki, “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinə əsasən sahibkarlıq sahəsində aparılan yoxlamalar 2021-ci il yanvarın 1-dək dayandırılmışdır.<br>Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına 2017-ci ilin 11 ayı ərzində layihələrin ümumi dəyəri 500.1 milyon manat olan 1848 sahibkara 121.7 milyon manat güzəştli kredit verilmişdir. Güzəştli kreditlərin 69.4%-i aqrar sektorun, 30.6%-i müxtəlif sənaye və digər sahələrin inkişafına verilmişdir. Verilmiş kreditlərin 65%-i respublikanın regionlarının, 35%-i isə Bakı şəhərinin qəsəbələrinin payına düşür. Maliyyələşdirilən layihələrin 96.8%-i (1800-dək kiçik həcmli layihəyə 19.3 milyon manatadək) kiçik həcmli layihələrin payına düşmüşdür. Bu kreditlər hesabına 5600-dən çox yeni iş yerinin yaradılması imkanı yaranmışdır. Əhalinin həssas qruplarının, o cümlədən gənclərin, qadınların, məcburi köçkünlərin və əlillərin sahibkarlıq fəaliyyətinə cəlb olunmalarının stimullaşdırılması məqsədilə onlara dövlətin güzəştli kreditlərinin verilməsidir. Bu məqsədlə 265 gənc sahibkarlıq subyektinə 30.8 milyon manat, 260 qadın sahibkarlıq subyektinə 6.4 milyon manat və 84 məcburi köçkün sahibkarlıq |

| | | |
|---|---|---|
| | | subyektinə 1.3 milyon manat güzəştli kredit verilimişdir. Bu kreditlər hesabına 1933 yeni iş yerinin yaradılması imkanı yaranmışdır. Yeni texnologiyalara əsaslanan investisiya layihələrinin güzəştli qaydada maliyyələşdirilməsi sahəsində işlər 2017-ci ilin 11 ayı ərzində də davam etdirilmiş və bu məqsədlə 38 investisiya layihəsi maliyyələşdirilmişdir. Bu layihələrdən 5 aqropark, 1 logistik mərkəz, 1 cins heyvandarlıq və 67.2 hektar ərazidə 8 istixana kompleksi, 1 quşçuluq, 1 bağçılıq təsərrüfatı, 6000 hektar ərazidə müasir suvarma sistemlərinin tətbiqi ilə pambıq əkini, 2 pambıq emalı, 1 meyvə-tərəvəz emalı, 1 çörək, 1 süfrə suları, 1 pestissid istehsalı, 2 quru tütün istehsalı və tütünqurutma kamerası, 1 mebel fabriki, 3 turizm, 3 tikinti materialları, 4 plastik tara, qablaşdırma, polietilen və metal borular, plastik qranul və karton viol, 1 şprits və 1 polietilen məhsulları istehsalı müəssisəsinə 98 milyon manat güzəştli kredit verilmişdir. Tütünçülüyün inkişafı ilə bağlı 100-dək sahibkara 1.6 milyon manat, o cümlədən müasir texnologiyaların tətbiqi ilə 2 quru tütün istehsalı və tütünqurutma kamerasının yaradılmasına 0.5 milyon manat güzəştli kredit verilmişdir. Pambıqçılığın inkişafı ilə bağlı 195 sahibkara 9.8 milyon manat (o cümlədən 6000 hektar ərazidə müasir suvarma sistemlərinin tətbiqi ilə pambıq əkini və 30 min ton pambıq emalı olan 1 müəssisəyə 5 milyon manat, 1 emal müəssisəsinə 2 milyon manat) o cümlədən, 193 sahibkara kiçik həcmli 2.8 milyon manat güzəştli kredit verilmişdir. Dövlət başçısının tapşırığına uyğun olaraq 28 rayon üzrə 182.1 min hektar ərazidə 42 aqroparkın, o cümlədən 13 rayonda 39.4 min hektar ərazidə 15 müasir cins heyvandarlıq kompleksinin (yem bazası ilə birlikdə) və 19 rayonda 142.7 min hektar ərazidə 27 iri taxılçılıq (bitkiçilik) təsərrüfatlarının yaradılması təşviq olunur. 16 aqroparkda (81 min ha) işlərə başlanılmışdır. Bu aqroparklardan ümumi dəyəri 350.6 milyon manat olan 13 aqroparkın (41.6 min ha ərazidə) yaradılmasına 98.6 milyon manat güzəştli kredit verilmişdir.<br>Sumqayıt Kimya Sənaye Parkının fəaliyyətinin təmin olunması məqsədi ilə infrastrukturun qurulması və bir sıra işlərin tamamlanması ilə əlaqədar tikinti-quraşdırma işləri davam etdirilmişdir. Təqdim edilmiş investisiya layihəsinin qiymətləndirilməsi nəticəsində “Sumqayıt Kimya Sənaye Parkı” MMC-nin müvafiq qərarlarına uyğun olaraq 4 hüquqi şəxsə sənaye parklarının rezidenti statusu verilmişdir. “STDC” MMC-yə “Məlumatların (datanın) emalı, qeydə alınması və ötürülməsi” layihəsi üzrə Sumqayıt |

| | | |
|---|---|---|
| | | Kimya Sənaye Parkının rezidenti kimi qeydiyyata alınmış və rezidentə müvafiq qeydiyyat şəhadətnaməsi təqdim edilmişdir. “Mingəçevir Tekstil” Məhdud Məsuliyyətli Cəmiyyəti “2 növdə (“Ring” və “Open End” üsulu ilə) ipliklərin istehsalı” layihəsi üzrə Mingəçevir Sənaye Parkının rezidenti kimi qeydiyyata alınmış və rezidentə müvafiq qeydiyyat şəhadətnaməsi təqdim edilmişdir. “Diamed Co” Məhdud Məsuliyyətli Cəmiyyəti “Müxtəlif tutumlu birdəfəlik şprislərin istehsalı” layihəsi üzrə Pirallahı Sənaye Parkının rezidenti kimi qeydiyyata alınmış və rezidentə müvafiq qeydiyyat şəhadətnaməsi təqdim edilmişdir. “Caspian Pharmed” Qapalı Səhmdar Cəmiyyəti “Dərman vasitələrinin qablaşdırılması və istehsalı” layihəsi üzrə Pirallahı Sənaye Parkının rezidenti kimi qeydiyyata alınmış və rezidentə müvafiq qeydiyyat şəhadətnaməsi təqdim edilmişdir. Bundan başqa, edilmiş müraciətlər əsasında Sumqayıt Kimya Sənaye Parkının rezidentləri “Azertexnolayn” MMC-yə 11, “SOCAR Polymer” MMC-yə 11, “Baku Non Ferrous and Foundry Company” MMC-yə 6, “Aqrokimya Azərbaycan” MMC-yə 3, “Alco Lubricant Company” MMC-yə 11, “STDC” MMC-yə 1, “MST Engineering Services” MMC-yə 3, Qaradağ Sənaye Parkının rezidenti “Bakı Gəmiqayırma Zavodu” MMC-yə 23, Mingəçevir Sənaye Parkının rezidenti olan “Mingəçevir Tekstil” MMC-yə 3 olmaqla, ümumilikdə 72 təsdiqedici sənəd verilmişdir. Qeyd edək ki, bugünədək “Sumqayıt Kimya Sənaye Parkı” MMC-nin idarəedici təşkilatı olduğu sənaye parkları üzrə rezidentlərə ümumilikdə 139 təsdiqedici sənəd təqdim edilmişdir ki, bununla da həmin təsərrüfat subyektlərinə vergi və gömrük rüsumlarından 95 milyon manat azadolma tətbiq edilmişdir.<br>Sahibkarların qarşılaşa biləcəyi problemlərə adekvat preventiv tədbirlərin görülməsi zərurəti ilə, eyni zamanda ölkəmizdə iqtisadi sahədə aparılan islahatların davamı olaraq investisiya fəaliyyətinin genişləndirilməsi, biznes mühitinin yaxşılaşdırılması və sənaye istehsalının artırılması məqsədilə Azərbaycan Respublikasının Prezidentinin 18.01.16. tarixlil 745 nömrəli və 20.04.16. tarixli 877 nömrəli Fərmanlarına əsasən sahibkarlara qanunla nəzərdə tutulmuş müxtəlif güzəştlərin verilməsi üçün İqtisadiyyat Nazirliyi tərəfindən investisiya təşviqi sənədi və investisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün təsdiqedici sənədlərin verilməsinə başlanılmışdır. Nazirlik tərəfindən 20.12.2017-cı il tarixinədək 204 |

| | | |
|---|---|---|
| | | sahibkarlıq subyektinə 224 investisya təşviqi sənədi, 171 sahibkarlıq subyektinə isə 1112 təsdiqedici sənəd verilmişdir. Sahibkarlıq subyektlərinə verilmiş investisya təşviqi sənədlərinin 86-i kənd təsərrüfatlı, 138-i isə sənaye təyinatlı müəssisələrdir. Bu layihələrin ümumi dəyəri 1.925.982.7 min manat, gətiriləcək avadanlıqların məbləği 1.037.179.7 min manat, güzəştlə gətirilmiş avadanlıqların dəyəri 188.395.4 min ABŞ dollarıdır. Həmçinin, qeyd edilən layihələrin həyata keçirilməsi nəticəsində 15429 yeni iş yerlərinin açılması nəzərdə tutulmuşdur.<br>Bundan əlavə, Azərbaycan Respublikası Prezidentinin "Sahibkarlıq fəaliyyətinin xüsusi razılıq (lisenziya) tələb olunan növlərinin sayının azaldılması, xüsusi razılıq (lisenziya) verilməsi prosedurlarının sadələşdirilməsi və şəffaflığının təmin edilməsi haqqında" 19.10.15. tarixli 650 nömrəli Fərmanına əsasən lisenziyaların (dövlət təhlükəsizliyindən irəli gələn hallar istisna olmaqla) verilməsi İqtisadiyyat Nazirliyi tərəfindən "ASAN xidmət" mərkəzlərində həyata keçirilir. Nazirlik tərəfindən 02.11.15.-19.12.17. tarixləri ərzində "ASAN xidmət" mərkəzləri vasitəsilə sahibkarlıq subyektlərinə 4200-ü Bakı şəhəri, 642-i isə region olmaqla ümumilkdə 4842 lisenziya verilmişdir.<br>İqtisadiyyat Nazirliyi tərəfindən Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası ilə birlikdə sahibkarların ictimai birliklərinin, sahəvi assosiasiyaların yaradılması və inkişaf etdirilməsinin dəstəklənməsi istiqamətində tədbirlər davam etdirilmişdir. Belə ki, cari ildə qablaşdırma, xurma, mebel, tekstil və tütün sahələri üzrə assosiasiyaların yaradılması dəstəklənmişdir. Eyni zamanda biznes assosiasiyaların hüquqi statusu, funksiyaları, maliyyə dayanıqlığı kimi məsələlərlə bağlı beynəlxalq təcrübə, o cümlədən ABŞ, Böyük Britaniya, Almaniya, Yaponiya təcrübələri araşdırılmış və ilkin təkliflər hazırlanmışdır.<br>Bununla əlaqədar, 15.09.17. tarixində İqtisadiyyat və Ədliyyə Nazirlikləri, "Azərbaycan Dəmir Yolları" QSC, "Azərenerji" ASC, "Azərsu" ASC və "Azərişıq" ASC-nin nümayəndələrindən ibarət yaradılmış işçi qrupun iclası keçirilmiş və tədbirin icrası istiqamətində hazırlanmış ilkin təkliflər barədə müzakirələr aparılmışdır. Nəticə etibarilə, biznes assosiasiyalarının hüquqi statusunun müəyyən olunması və onların fəaliyyətini tənzimləyən ayrıca qanunvericilik aktının layihəsinin hazırlanması normativ hüquqi bazanın təkmilləşdirilməsi məqsədilə ölkəmizin qanunvericiliyi və bu sahədə beynəlxalq təcrübənin |

| | | |
|---|---|---|
| | | (Rusiya və Türkiyə) araşdırılması əsasında yeni qanun layihəsi hazırlanmışdır.<br>Regionlarda sahibkarların hüquqlarının və qanuni mənafelərinin müdafiəsi və onlara dəstək xidmətlərinin göstərilməsi üçün ticarət palatalarının yaradılması istiqamətində bir sıra addımlar atılmışdır. Belə ki, bu istiqamətdə, Polşa, Bolqarıstan, Qazaxıstan, Xorvatiya, Makedoniya, Türkiyə kimi ölkələrin təcrübələri öyrənilərək, ticarət palataların yaradılması və fəaliyyəti ilə bağlı həmin ölkələrin normativ-hüquqi bazası araşdırılmışdır. Aparılmış təhlillərin nəticəsi olaraq, ticarət palatalarının sahibkarlara göstərdiyi xidmətlərin siyahısı tərtib olunmuş, dövlət ilə əməkdaşlıq istiqamətləri müəyyənləşdirilmişdir. Bununla yanaşı, qeyd edilən sahədə beynəlxalq ekspert dəstəyinin göstərilməsi ilə bağlı tədbir görülmüşdür. Avropa İttifaqı tərəfindən maliyyələşdirilən “İqtisadiyyat Nazirliyinin Sahibkarlığın inkişafı siyasəti şöbəsinin səriştəsinin formalaşdırılması və kiçik və orta sahibkarlığın inkişafı sahəsində Azərbaycan hökumətinə dəstəyin göstərilməsi” layihəsi çərçivəsində ticarət palatalarının fəaliyyətinin genişləndirilməsi istiqamətində cəlb edilmiş beynəlxalq ekspert tərəfindən araşdırılmanın aparılmasına başlanılaraq müvafiq hesabatın hazırlanması nəzərdə tutulur.<br>Hesabat dövrü ərzində, Azərbaycanda fəaliyyət göstərən kiçik və orta sahibkarlıq subyektlərinə birbaşa xarici investisiyaların cəlb edilməsi istiqamətində bir sıra tədbirlər görülmüşdür. Belə ki, 2017-ci il ərzində AZPROMO tərəfindən ölkə daxili və xarici səfərlərdə, kənd təsərrüfatı və ərzaq sənayesi, ağır və yüngül sənaye, tikinti, İKT, turizm, nəqliyyat və logistika, kimya sənayesi, maliyyə, səhiyyə və əczaçılıq, təhsil, alternativ enerji, ticarət və konsaltinq sahələrini təmsil edən yerli və xarici iş adamlarını bir araya gətirmək məqsədilə 158 tədbir və B2B görüşlər təşkil olunmuşdur. Kiçik və orta sahibkarlıq subyektlərinə subyektlərinin xarici investisiyaların təşviqi sahəsində məlumatlandırılması məqsədilə 2017-ci ili ərzində müxtəlif tarixlərdə Bakı Biznes Tədris Mərkəzi tərəfindən Gəncə, Qazax, Yevlax, Bərdə, Şəki şəhər və rayonlarında kiçik və orta sahibkarlar üçün “Biznes planların və investisiya layihələrinin hazırlanması” mövzusunda treninqlər keçirilmişdir. Tədbirlərdə biznes planın mahiyyəti və məzmunu, biznes planın bölmələri, biznes ideyanın yaradılması, biznes planların tərtib edilməsi metodikası, istehsalat planı, maliyyə planı və s. barədə məlumatlar iştirakçıların diqqətinə çatdırılmışdır. |

| | | |
|---|---|---|
| | | Eyni zamanda, 27-28 aprel 2017-ci il tarixlərində İqtisadiyyat Nazirliyinin, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) və Bakı Biznes Tədris Mərkəzinin birgə təşkilatçılığı ilə Bakı Biznes Tədris Mərkəzinin nümayəndəliklərinin rəhbərləri üçün Bakıda "İnvestisiya təşviqi sənədinin verilməsi qaydası", "Lisenziyaların verilməsi qaydası", "Sahibkarlığın inkişafı sahəsində qanunvericilikdə yeniliklər" və "İxrac qanunvericiliyi sahəsində yeniliklər" mövzularında təlimlər keçirilmişdir. Təlimlərdə, brendləşmə, "Made in Azerbaijan" brendinin yaradılması, məhsulların keyfiyyətinin yüksəldilməsi, investisiya təşviqi sənədin almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi, ixracatçılar üçün güzəştlər və stimullaşdırıcı tədbirlər və s. barədə ətraflı məlumatlar iştirakçıların diqqətinə çatdırılmışdır.<br>Kiçik və orta sahibkarlıq subyektlərinə birbaşa xarici investisiyaların cəlb edilməsi istiqamətində mexanizmlər araşdırılır və hal-hazırda "İnvest in Azerbaijan" proqram layihəsi üzərində iş aparılır.<br>İqtisadiyyat Nazirliyi tərəfindən ölkəmizdə qadın sahibkarlığın inkişaf etdirilməsi ilə əlaqədar 6 ölkənin təcrübəsi (Braziliya, Almaniya, ABŞ, Hindistan, Kanada, Cənubi Afrika) araşdırılmışdır.<br>Həmçinin müvafiq təkliflərin təqdim olunması məqsədilə aidiyyəti orqanlara müraciət edilmişdir. Eyni zamanda, 25 aprel "Sahibkarlar Günü" münasibətilə Azərbaycan Respublikası Prezidentinin 25.04.17. tarixli 2823 nömrəli Sərəncamı ilə 3 qadın sahibkar "Tərəqqi" medalı ilə, habelə 12 qadın sahibkar isə İqtisadiyyat Nazirliyinin Fəxri Fərmanı ilə təltif olunmuşdur.<br>Bundan əlavə, 2017-ci ilin mart ayında Avropa Treninq Fondu, Avropa Komissiyası, Ukrayna İqtisadi İnkişaf və Ticarət Nazirliyi və Ukrayna Ticarət Sənaye Palatasının birgə təşkilatçılığı ilə keçirilmiş " "Beynəlxalq Qadın Sahibkarlar Laboratoriyası" adlı tədbirdə qadın sahibkarlığı sahəsində beynəlxalq təcrübələr öyrənilmiş və məlumatlar hazırlanmışdır.<br>İqtisadiyyat Nazirliyi tərəfindən ABŞ, Kanada, Böyük Britaniya, Finlandiya, Litva, Rusiya və Qazaxıstan təcrübəsi öyrənilmiş, qadın sahibkarlığının inkişaf yolu, qadın biznes assosiasiyaları və şuralarının fəaliyyət istiqamətləri araşdırılmışdır. Ölkədə qadın sahibkarlar assosiasiyasının yaradılması məqsədilə qadın sahibkarların siyahısının dəqiqləşdirilməsi üçün Ailə, Qadın Uşaq Problemləri üzrə |

| | | |
|---|---|---|
| | | Dövlət Komitəsinə müraciət edilmişdir.<br>Sahibkarlığın inkişafı sahəsində atılan kompleks addımlar istehsal olunan mal və xidmətlərin rəqabətqabiliyyətliliyinin yüksəlməsinə, iqtisadi tənzimləmə alətlərinin effektiv tətbiqinə, iqtisadiyyatın dayanıqlılığına və xarici təsirlərin çevik absorbsiyasına şərait yaradacaqdır. |
| 13. | İqtisadi sahədə həyata keçirilən islahatlar, onların məqsədi və mahiyyəti barədə ictimaiyyətin məlumatlandırılmasının təmin edilməsi (8.9) | Azərbaycan Respublikası Prezidentinin “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında” 06.12.16. tarixli 1138 nömrəli Fərmanı ilə milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri təsdiq edilmişdir. İqtisadi sahədə həyata keçirilən islahatları əsasən özündə əks etdirən 12 strateji yol xəritələrində tədbirlərin böyük əksəriyyətində İqtisadiyyat Nazirliyi əsas icraçıdır.<br>Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrində, həmçinin son dövrlər iqtisadi sahədə aparılan islahatları özündə əks etdirən strateji sənədlərdə (normativ hüquqi aktlarda) müəyyən edilmiş prioritetlər, vətəndaşların və sahibkarların maraqlarını formalaşdıran tədbirlər, iqtisadi sahədə həyata keçirilən islahatlar, o cümlədən daxili istehsalın stimullaşdırılması ilə bağlı qəbul edilmiş qərarlar, eyni zamanda onların məqsədi və mahiyyəti barədə məlumatlar, qarşıya qoyulan strateji hədəflərin konkret və ölçüləbilən meyarlar əsasında icra olunması mexanizmləri mütəmadi olaraq Nazirliyin rəhbərliyi və müvafiq qurumları tərəfindən Bakı şəhərində və regionlarda keçirilən 100-lərlə tədbirlərdə ictimaiyyətin diqqətinə çatdırılmış, qeyd olunan məlumatların həmçinin Nazirliyin rəsmi internet saytında və digər internet saytlarında dərci, eyni zamanda həmin məlumatların Nazirliyin sosial şəbəkələrində yayılması təmin edilmişdir. |
| 14. | Özəl sektorda şəffaflığın təmin edilməsi və korrupsiyanın qarşısının alınması məqsədi ilə antikorrupsiya, şəffaflıq, etik davranış və hesabatlılıq tələbləri | Özəl sektorun genişlənməsi üçün daha əlverişli mühitin yaradılması, şəffaflığın təmin edilməsi və korrupsiyanın qarşısının alınması məqsədilə Nazirlik tərəfindən antikorrupsiya, şəffaflıq, etik davranış və hesabatlılıq tələbləri (uyğunluq mexanizmi) üzrə müvafiq təkliflər hazırlanır, həmçinin bu sahə üzrə mütəmadi olaraq təlim və treninqlər keçirilmiş, maarifləndirici materiallar hazırlanmış onların yayılması təşkil edilmişdir. Özəl sektorda antikorrupsiya, şəffaflıq, etik davranış və hesabatlılıq tələbləri (uyğunluq mexanizmi) üzrə təkliflər hazırlanarkən mövcud qanunvericilikdə əks olunan tələblər, o cümlədən “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununda qeyd |

| | | |
|---|---|---|
| | (uyğunluq mexanizmi) üzrə təkliflərin hazırlanması (9.1.) | olunan bilavasitə korrupsiya və korrupsiyaya şərait yaradan hüquqpozmalarına yol verilməməsinə, korrupsiya hüquqpozmalarına görə fiziki və ya hüquqi şəxslərin məsuliyyətinə, korrupsiya ilə əlaqədar hüquqpozmaların nəticələrinin aradan qaldırılmasına dair tələblər və etik davranış qaydaları ilə bağlı müvafiq qanunlarda əks olunan etik davranış qaydaları nəzərə alınmış, eləcə də dövlət orqanlarında olan mövcud hesabatlılıq tələbləri əsas götürülərək, onların özəl sektora tətbiq edilməsinin mümkünlüyü araşdırılmışdır. Bundan əlavə, özəl sektorda şəffaflığın təmin edilməsi məqsədi ilə antikorrupsiya, etik davranış qaydaları və uyğunluq mexanizmləri üzrə sahibkarlar üçün nəzərdə tutulmuş təlim və treninqlərin təqvim-tematik planı hazırlanaraq, Bakı şəhərində və regionlarda aylar üzrə mütəmadi olaraq müvafiq təlim və treninqlərin keçirilməsi təmin edilmiş, eyni zamanda özəl sektorda korrupsiyanın qarşısının alınması üzrə qanunvericiliyin tələblərini özündə əks etdirən müvafiq maarifləndirici materialların hazırlanması və onların ilkin olaraq Nazirliyin rəsmi internet saytında yerləşdirilməsi, daha sonra isə sahibkarlar üçün keçirilən təlim və treninqlərdə sahibkarlara təqdim edilməsi təmin edilmişdir. Gələcəkdə bu sahə üzrə sosial reklamların yayımlanmasının təşkil edilməsi və "online" tədris proqramlarının hazırlanması nəzərdə tutulmuşdur.<br>Azərbaycan Respublikası Prezidentinin 26.12.14. tarixli 964 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"nda korporativ idarəetmə prinsiplərinin tətbiqinin təşviqi və sənaye müəssisələrində korporativ idarəetmə standartlarının tətbiqinə köməklik göstərilməsi nəzərdə tutulmuşdur. Bununla əlaqədar İqtisadiyyat Nazirliyi tərəfindən korporativ idarəetmə prinsiplərinin sənaye müəssisələrində tətbiqi ilə bağlı ümumilikdə 8 mövzu üzrə təlimlər keçirilmişdir. O cümlədən, müəssisə və təşkilatlar üçün korporativ idarəetmə prinsiplərinin sənaye müəssisələrində tətbiqi ilə bağlı 20.04.17. tarixində "Daxili nəzarət. Risklərin idarəolunması. Məsuliyyət" və 29.11.17. tarixində "Korporativ sosial məsuliyyət. Maraqlı şəxslər" mövzusunda təlimlər keçirilmişdir.<br>Bununla yanaşı, Azərbaycan Respublikası Prezidentinin 03.02.16. tarixli 762 nömrəli Fərmanına əsasən yaradılmış Nazirliyin Apelyasiya Şurası hesabat dövründə də sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslər tərəfindən özlərinin sahibkarlıq fəaliyyəti ilə bağlı Nazirliyin səlahiyyətlərinə aid |

| | | |
|---|---|---|
| | | verilmiş təkrar şikayətlərə baxmışdır.<br>Həmçinin, İqtisadiyyat Nazirliyi tərəfindən dövlət-özəl tərəfdaşlığının ölkəmizdə mövcud vəziyyəti araşdırılmış, həmçinin dövlət-özəl tərəfdaşlığının dünyada əsas inkişaf meyllərini müəyyən etmək və müsbət təcrübələrdən faydalanmaq məqsədilə beynəlxalq təcrübə, o cümlədən İngiltərə, ABŞ, Almaniya, Rusiya, Qazaxıstan, Belarus və digər ölkələrin təcrübələri öyrənilmişdir. Eyni zamanda, 15.09.17. tarixində Ədliyyə Nazirliyinin, "Azərişıq" ASC-nin, "Azərenerji" ASC-nin, "Azərsu" ASC-nin və "Azərbaycan Dəmir Yolları" QSC-nin, eləcə də İqtisadiyyat Nazirliyinin aidiyyəti struktur bölmələrinin nümayəndələrindən ibarət yaradılmış işçi qrupun iclası keçirilmişdir. İclasda tədbirin icrası ilə bağlı görülmüş işlər və hazırlanmış sənəd layihələri və aidiyyəti təkliflər iclasın ümumi müzakirəsinə çıxarılmış, müvafiq qərarlar qəbul edilmişdir. Tədbirin icrası ilə bağlı görülən işlərin nəticəsi olaraq Ədliyyə Nazirliyinin, Maliyyə Nazirliyinin, "Azərişıq" ASC-nin, "Azərenerji" ASC-nin, "Azərsu" ASC-nin, "Azərbaycan Dəmir Yolları" QSC-nin, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Milli Konfederasiyasının, eləcə də müstəqil ekspertlərin rəy və təklifləri nəzərə alınmaqla İqtisadiyyat Nazirliyi tərəfindən “Azərbaycan Respublikasının dövlət-özəl tərəfdaşlığı üzrə İnkişaf Konsepsiyası”nın və onun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanının layihələri hazırlanmışdır.<br>Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanına əsasən yaradılmış “Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat Reyestri”ndə olan məlumatlar mütəmadi olaraq təhlil edilmişdir. Belə ki, “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Qanunun tətbiqindən sonrakı 23 ay ərzində vergi yoxlamaları istisna olmaqla sahibkarlıq subyektlərində cəmi 113 yoxlama, o cümlədən 2017-ci ilin ilk 9 ayı ərzində 43 yoxlama keçirilmişdir. Müqayisə üçün yoxlamaların dayandırılmasından əvvəlki 23 ay ərzində isə vergi yoxlamaları istisna olmaqla, sahibkarlıq subyektlərində keçirilmiş yoxlamaların sayı 113 mindən çox olmuşdur. Həmçinin sözügedən dövrdə 188 sahibkarlıq subyektində yoxlamaların keçirilməsinə razılıq verilməsi üçün İqtisadiyyat Nazirliyinə daxil olmuş müraciətlərin 160-na imtina edilmişdir.<br>Həmçinin, yoxlamaların dayandırılmasından əvvəlki dövr üzrə “Sahibkarlıq sahəsində aparılan |

| | | |
|---|---|---|
| | | yoxlamaların vahid məlumat Reyestri"ndə olan məlumatlara əsasən 2012-ci ildə vergi yoxlamaları istisna olmaqla 63141 yoxlama, 2013-cü ildə 55602 yoxlama, 2014-cü ildə 49955 yoxlama, 2015-ci ilin 10 ayı üzrə isə 61410 yoxlama keçirilmişdir. Həmin yoxlamaların 2012-ci ildə 80%-i, 2013-cü ildə 77%-i, 2014-cü ildə 76%-i, 2015-ci ilin 10 ayı üzrə isə 81%-i 3 orqan Fövqəladə, Səhiyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri tərəfindən (2012-ci il üzrə Fövqəladə Hallar Nazirliyi 36%, Səhiyyə Nazirliyi 27% və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi 17%, 2013-cü il üzrə Fövqəladə Hallar Nazirliyi 33%, Səhiyyə Nazirliyi 27% və ƏHək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi 17%, 2014-cü il üzrə Fövqəladə Hallar Nazirliyi 32%, Səhiyyə Nazirliyi 19% və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi 25%, 2015-ci ilin 10 ayı üzrə Fövqəladə Hallar Nazirliyi 50%, Səhiyyə Nazirliyi 11% və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi 20%) keçirilmişdir.<br>Ölkəmizdə maliyyə savadlılığının artırılması ilə əlaqədar, Avropa İttifaqının ekspertləri ilə görüş keçirilmiş və sahibkarlıq subyektlərinin maliyyə savadlılığının artırılması çərçivəsində tətbiq olunan mütərəqqi təlim və treninq formaları barədə müzakirələr aparılmışdır.<br>Sahibkarlıq subyektlərinin maliyyə savadlılığının artırılması ilə əlaqədar Türkiyə, Böyük Britaniya və Yeni Zelandiya kimi ölkələrinin təcrübələri araşdırılaraq, ilkin material hazırlanmış, materiallarda beynəlxalq təcrübədə sahibkarlar üçün treninqin formaları, qiymətləndirilməsi, sahibkarların bacarıqlarının inkişaf etdirilməsində cari tendensiyalar, sahibkarların ehtiyacının öyrənilməsi, həmçinin sahə üzrə ictimai maarifləndirilmənin aparılması (veb portalların yaradılması və s.) və Azərbaycanda sahibkarlıq subyektlərinin maliyyə savadlılığının gücləndirilməsinə dair təkliflər öz əksini tapmışdır. Hazırlanmış təkliflərlə əlaqədar, 20.09.17. tarixində Təhsil Nazirliyi və Maliyyə Bazarlarına Nəzarət Palatasının aidiyyəti nümayəndələri ilə müzakirələr aparılmışdır. |
| 15. | Özəl sektorda şəffaflığın təmin edilməsi məqsədi ilə antikorrupsiya, etik davranış qaydaları və uyğunluq mexanizmləri | Hesabat ili ərzində Bakı şəhərində və regionlarda keçirilmiş 113 tədbirdə iştirakçılar üçün "İqtisadiyyat Nazirliyi tərəfindən göstərilən elektron xidmətlər" mövzusunda təqdimatlar edilmiş, İqtisadiyyat Nazirliyi tərəfindən göstərilən elektron xidmətlər, bu xidmətlərin "E-hökumət" portalına (www.e-gov.az) inteqrasiyası, elektron xidmətlərin korrupsiya risklərinin aradan qaldırılması, şəffaflığın artırılması üçün yaratdığı əlverişli imkanlar və s. barədə məlumatlar iştirakçıların diqqətinə çatdırılmışdır. Cari ilin |

| | | |
|---|---|---|
| | üzrə təlim və treninqlərin keçirilməsi (9.2.) | sonunadək tədbirlərin davam etdirilməsi nəzərdə tutulmuşdur.<br>Bununla yanaşı, İqtisadiyyat Nazirliyi tərəfindən 10.02.17. tarixində Cəlilabad rayonunda, 21.02.17. tarixində Lənkəran rayonunda, 23.02.17. Balakən rayonunda, 14.03.17. tarixində Şəki şəhərində və Lənkəran rayonunda, 16.03.17. Qazax rayonunda, 04.04.17. tarixində Lənkəran rayonunda, 07.04.17. tarixində Ağstafa rayonunda, 12.04.17. tarixində Qazax rayonunda, 20.04.17. tarixində Lənkəran rayonunda, 21.04.17. tarixində Kürdəmir rayonunda, 12.05.17. tarixində Biləsuvar rayonunda, 25.05.17. tarixində Lənkəran rayonunda, 05.06.17. tarixində Şəki şəhərində, 06.06.17. tarixində rayonunda, 07.06.17. tarixində Masallı rayonunda, 09.06.17. tarixində Qazax rayonunda, 14.06.17. tarixində Naftalan şəhərində, 22.06.17. tarixində Ağsu rayonunda, 20.06.17. tarixində Lənkəran rayonunda, 25.09.17. tarixində Qazax rayonunda, 27.07.17. tarixində Ağstafa rayonunda, 06.10.17. tarixində Lənkəran rayonunda, 09.10.17. tarixində Göyçay rayonunda, 11.10.17. tarixində Şəki şəhərində, 02.11.17. tarixində İsmayıllı rayonunda, 08.11.17. tarixində Yardımlı rayonunda, 10.11.17. tarixində Qazax rayonunda, 30.11.17. tarixində Gəncə şəhərində, 01.12.17. tarixində isə Biləsuvar rayonunda sahibkarların maarifləndirilməsi məqsədi ilə keçirilmiş tədbirlərdə “Apellyasiya Şuralarının fəaliyyəti” mövzusunda təqdimat edilmiş, iştirakçılara Azərbaycan Respublikasının Prezidenti yanında Apellyasiya Şurasının və İqtisadiyyat Nazirliyində yaradılmış Apellyasiya Şurasının sahibkarlığın inkişafında əhəmiyyəti, Apellyasiya Şurasının fəaliyyəti, sahibkarların Apellyasiya Şurasına təkrar şikayət vermək hüquqları, təkrar şikayətlərin verilməsi qaydası, Apellyasiya Şurasına verilən təkrar şikayətlərin əhatə dairəsi və təkrar şikayətlərə dair tələblər, özəl sektorda şəffaflığın təmin edilməsi məqsədi ilə antikorrupsiya, etik davranış qaydaları barədə məlumat verilmişdir. Cari ilin sonunadək tədbirlərin davam etdirilməsi nəzərdə tutulmuşdur.<br>Kiçik və orta sahibkarlıq subyektlərinin faydalanması üçün Azərbaycanda model müəssisənin yaradılması ABŞ və Böyük Britaniyada tətbiq edilən korporativ idarəetmə standartları araşdırılmış və beynəlxalq təcrübəyə əsaslanan arayış hazırlanmışdır. Bununla əlaqədar, 26.09.17. tarixində işçi qrupun iclası keçirilmiş və hazırlanmış arayış əsasında müzakirələr aparılmışdır. Bununla bağlı iki istiqamətdə təklifləri özündə ehtiva edən təqdimat hazırlanmışdır. Həmin istiqamətlər aşağıdakılardır: |

| | | |
|---|---|---|
| | | Model müəssisə dövlət tərəfindən təsis olunur və fəaliyyətinin təşkili, idarəedilməsi və inkişaf etdirilməsi məsələləri həll edilir. Özəl təsərrüfat subyektləri tərəfindən sənaye zonalarının ərazisində yaradılır. Sənaye zonalarının rezidentlərinə şamil olunan güzəştlər, stimullaşdırıcı tədbirlər sözügedən müəssisəyə də şamil olunur.<br>Gənclərin sahibkarlıq təşəbbüsünün dəstəklənməsi, yeni biznes və məşğulluq imkanlarının yaradılması, sahibkarlıq fəaliyyətinin ilkin mərhələlərində iqtisadi, hüquqi, texniki, texnoloji, təşkilati, metodiki köməkliyin göstərilməsi məqsədilə 19.07.13. tarixdə Quba-Xaçmaz Regional İnkişaf Mərkəzində və 17.04.17. tarixində Aran Regional İnkişaf Mərkəzində biznes inkubatorlar fəaliyyətə başlamışdır. Biznes inkubatorların iştirakçılarının fəaliyyətləri üçün otaqlar ayrılmış, müasir tələblərə cavab verən ofis avadanlıqları ilə təchiz olunmuşdur. Həmçinin hazırlanmış müvafiq tədris plan və proqramları, eləcə də zəruri metodiki vəsaitlərlə təmin olunmuş, məsləhət xidmətləri göstərilmişdir. Fəaliyyətə başladığı müddətdən biznes inkubatora 46 nəfər rezident kimi qəbul edilmişdir. Onlara "Biznesin əsasları, təşkili və idarə edilməsi", "Biznes ideyanı yarat", "Biznes planların hazırlanması", "Marketinqin əsasları", "Brendin yaradılması" və s. mövzularda treninqlər keçirilmişdir. Həmçinin, 03.03.17. tarixdə digər qurumlarla birlikdə "Biznes inkubatorların gənc sahibkarlığın inkişafında rolu" mövzusunda konfrans keçirilmişdir. |
| 16. | Özəl sektorda korrupsiyanın qarşısının alınması üzrə maarifləndirici materialların hazırlanması və həmin materialların yayılmasının təşkili (9.3.) | Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli 714-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 28 avqust 2013-cü il tarixli 955 nömrəli Fərmanının 2.1-ci bəndinə əsasən İqtisadiyyat Nazirliyi tərəfindən Ədliyyə Nazirliyi ilə birlikdə "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn məsələlərin yoxlayıcı orqanlara izah edilməsi məqsədi ilə ildə ən azı iki dəfə yoxlayıcı orqanların və sahibkarların iştirakı ilə müvafiq təlimlər keçirilir. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra - Qanun) 1-ci maddəsinə əsasən sahibkarlıq sahəsində aparılan yoxlamalar 2021-ci il yanvarın 1-dək dayandırılmışdır. Qanunun 2.1-ci maddəsinə əsasən bu Qanunun |

| | | |
|---|---|---|
| | | 1-ci maddəsində nəzərdə tutulmuş müddətdə yalnız vergi yoxlamaları, müvafiq icra hakimiyyəti orqanı tərəfindən dərman vasitələrinin keyfiyyəti, təhlükəsizliyi qaydalarına riayət edilməsi və qida məhsullarının təhlükəsizliyinə nəzarətin həyata keçirilməsi ilə bağlı yoxlamalar, habelə insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına mühüm təhlükə yaradan hallar üzrə siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən yoxlamalar aparıla bilər. Həmin yoxlamalar müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən məhdudiyyətlər nəzərə alınmaqla aparılır. Bununla əlaqədar "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin 28.08.13. tarixli 955 nömrəli Fərmanından irəli gələn vəzifələrin icrası, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikası Prezidentinin 18.01.16. tarixli 745 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnvestisiya təşviqi sənədinin verilməsi Qaydası", habelə son dövrdə aparılan islahatlar barədə sahibkarların maarifləndirilməsi məqsədilə həyata keçirilən tədbirlərin davamı olaraq sahibkarlar və dövlət orqanları üçün cari ilin 07.07.17. tarixində Aran və Gəncə-Qazax iqtisadi rayonları (Mingəçevir, Yevlax, Gəncə, Naftalan şəhərləri, Ağdaş, Bərdə, Göyçay, Ucar, Zərdab, Göygöl, Samux rayonları) üzrə Yevlax şəhərində yerləşən Aran Regional İnkişaf Mərkəzində, 14.07.17. tarixində isə Abşeron və Quba-Xaçmaz iqtisadi rayonları (Sumqayıt şəhəri, Abşeron, Xızı, Quba, Xaçmaz, Qusar, Şabran, Siyəzən rayonları) üzrə Xaçmaz şəhərində yerləşən Quba-Xaçmaz Regional İnkişaf Mərkəzində İqtisadiyyat Nazirliyinin təşkilatçılığı ilə sahibkarlar və dövlət orqanları üçün maarifləndirmə tədbirləri keçirilmişdir. Tədbirlərdə İqtisadiyyat və Ədliyyə nazirliklərinin, Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının nümayəndələri və sahibkarlar olmaqla ümumilikdə 300 nəfər iştirak etmişdir. Tədbirlərdə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev tərəfindən iqtisadi islahatlar paketi çərçivəsində ötən ilin sonlarından etibarən sahibkarlığın inkişafı ilə bağlı verilən qərarlar, o cümlədən sahibkarlıq sahəsində aparılan yoxlamaların daha 4 il dayandırılması, həmin müddətdə aparılmasına icazə verilən yoxlamalar, sahibkarlıq fəaliyyəti üçün lisenziya və icazələrinin sayının və lisenziyaların |

| | | |
|---|---|---|
| | | alınmasına görə tələb edilən dövlət rüsumlarının məbləğlərinin azaldılması, verilməsi prosedurlarının sadələşdirilməsi, bu sahədə elektron portalın yaradılması üzrə işlərin davam etdirilməsi, sahibkarların hüquqlarının qorunması ilə bağlı apellyasiya şuralarının yaradılması, ölkə ərazisindən dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə tranzit yüklərin daşınmasında "bir pəncərə" prinsipi tətbiq olunması, ölkədə investisiyaların təşviqinin artırılması məqsədilə tətbiq olunan vergi və gömrük güzəştləri, qeyri-neft ixracının təşviqi ilə bağlı ixrac təşviqinin ödənilməsi və əlavə dəstək mexanizmlərinin yaradılması, dövlət satınalmalarında aparılan təkmilləşdirmələr və s. işlər barədə ətraflı məlumat verilmişdir. Həmçinin sahibkarların hüquqlarının müdafiəsi sahəsində mövcud qanunvericilik bazası, sahibkarlıq sahəsində aparılan yoxlamaların təşkili və aparılması qaydaları, yoxlamaların təşkili ilə bağlı risklərin idarə edilməsi, yoxlama suallarının siyahısı, “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Azərbaycan Respublikasının Qanunu, həmin Qanunun tətbiqi və sahibkarlıq sahəsində aparılan yoxlamaların dövlət tənzimlənməsinə dair əlavə tədbirlər barədə Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 26 oktyabr tarixli Fərmanı ilə təsdiq edilmiş insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına mühüm təhlükə yaradan hallar üzrə aparılmasına yol verilən yoxlamaların Siyahısı, yoxlamalara və sahibkarın fəaliyyətinə tətbiq edilən istehsalın və ya malın satışının dayandırılması, habelə digər məhdudlaşdırıcı tədbirlərə İqtisadiyyat Nazirliyinin razılığının tələb olunduğu hallar, yoxlamaların elektron uçotu, yoxlayıcı orqanların vəzifələri, sahibkarların hüquq və maraqlarının müdafiəsi, “Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestri”nin məqsəd və prinsipləri, əhəmiyyəti, yenilikləri və s. barədə məlumat verilmişdir.<br>Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin 18.01.16. tarixli 745 və 20.04.16. tarixli 878 nömrəli fərmanları ilə təsdiq edilmiş “İnvestisiya təşviqi sənədinin verilməsi Qaydası”, “İnvestisiyanın həyata keçirildiyi iqtisadi fəaliyyət sahələri, investisiya layihəsinin həcmi ilə bağlı minimal məbləğ və investisiya layihəsinin həyata keçiriləcəyi inzibati ərazi vahidləri”, “İnvestisiya təşviqi sənədinin forması”, tələb olunan sənədlər, müraciət qaydası barədə məlumatlar sahibkarların diqqətinə çatdırılmışdır. Tədbirlərin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılmışdır. |

| | | |
|---|---|---|
| | | Həmçinin ölkədə sahibkarlıq subyektlərinin məlumatlandırılması və maariflləndirilməsi sahəsində tədbirlər davam etdirilir. Belə ki, ölkədə sahibkarlığın inkişafı sahəsində həyata keçirilən məqsədyönlü tədbirlər, aparılan son islahatlar, qanunvericiliyə dəyişikliklər, o cümlədən sahibkarlıq fəaliyyətində baş verən yeniliklər barədə məlumatların sahibkarlara çatdırılması məqsədilə 9 əsas bölmədən ibarət Nazirliyin “Sahibkarlara Dəstək” Məlumat səhifəsi (sahibkar.economy.gov.az) hazırlanaraq istifadəyə verilmişdir. Məlumat səhifəsində müvafiq bölmələrə yerləşdirilən yeni informasiya və məlumatlar qeydiyyatdan keçmiş 1600-dən artıq sahibkarlara elektron qaydada dərhal göndərilir.<br>Həmçinin, sahibkarların hüquqlarının müdafiəsi sahəsində mövcud qanunvericilik bazası, sahibkarlıq sahəsində aparılan yoxlamaların təşkili və aparılması qaydaları, yoxlamaların təşkili ilə bağlı risklərin idarə edilməsi, yoxlama suallarının siyahısı, “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Azərbaycan Respublikasının Qanunu, həmin Qanunun tətbiqi və sahibkarlıq sahəsində aparılan yoxlamaların dövlət tənzimlənməsinə dair əlavə tədbirlər barədə Azərbaycan Respublikası Prezidentinin 26.10.15. tarixli Fərmanı ilə təsdiq edilmiş insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına mühüm təhlükə yaradan hallar üzrə aparılmasına yol verilən yoxlamaların siyahısı, yoxlamalara və sahibkarın fəaliyyətinə tətbiq edilən istehsalın və ya malın satışının dayandırılması, habelə digər məhdudlaşdırıcı tədbirlərə İqtisadiyyat Nazirliyinin razılığının tələb olunduğu hallar, yoxlamaların elektron uçotu, yoxlayıcı orqanların vəzifələri, sahibkarların hüquq və maraqlarının müdafiəsi, “Sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestri”nin məqsəd və prinsipləri, yenilikləri barədə məlumatlar da verilmişdir.<br>Sahibkarların tədris və təlim ehtiyaclarının müəyyənləşdirilməsi və təlim materiallarının hazırlanması məqsədi ilə müvafiq işləri görülməsi üçün aidiyyəti dövlət qurumlarının nümayəndələrindən ibarət iqtisadiyyat nazirinin 16 iyul 2017-ci tarixli F-104 nömrəli əmri ilə işçi qrupu yaradılmışdır. Aidiyyəti dövlət qurumlarının nümayəndələrindən ibarət işçi qrupun 25.08.17. tarixində iclası keçirilərək müxtəlif təkliflər irəli sürülmüşdür.<br>İqtisadiyyat Nazirliyinin Bakı Biznes Tədris Mərkəzi tərəfindən 2007-2017-ci illər ərzində Bakı şəhərində və regionlarda xarici və yerli ekspertlərin iştirakı ilə sahibkarlar və sahibkarlıq fəaliyyətinə |

| | | |
|---|---|---|
| | | yeni başlayanlar üçün “Biznes planların və investisiya layihələrinin hazırlanması”, “Biznesin əsasları, təşkili və idarə edilməsi”, “Biznes ideyanı yarat”, “Öz biznesinə başla”, "Made in Azerbaijan" brendinin yaradılması və inkişafı", “Ekoloji təmiz kənd təsərrüfatının inkişafı”, “Kənd təsərrüfatında sahibkarlıq fəaliyyətinin sığortalanması”, “Mövcud və yeni ixrac bazarlarına çıxış imkanları”, “Marketinq”, “Menecment”, “Korporativ idarəetmə”, “İqtisadiyyat Nazirliyi tərəfindən göstərilən elektron xidmətlər” və s. mövzular üzrə 1035 treninqlər, seminarlar, konfranslar, dəyirmi masalar və s. tədbirlər keçirilmişdir ki, bunların da 142-si 2016-cı ildə, 85-i isə 2017-ci ilin 9 ayı ərzində keçirilmişdir. Bu tədbirlərin 695-i Azərbaycanın müxtəlif regionlarında keçirilmişdir. Bu tədbirlərdə 31000-dən artıq dinləyici iştirak etmişdir ki, onların da təxminən 25%-ə qədərini qadın sahibkarlar və sahibkarlıq fəaliyyətinə yeni başlayan qadınlar təşkil etmişdir.<br>Tədris olunan mövzular üzrə Bakı Biznes Tədris Mərkəzi tərəfindən mütəmadi olaraq müvafiq tədris-metodiki materiallar hazırlanmış və Bakı Biznes Tədris Mərkəzinin internet səhifəsində (www.bbtc.gov.az) yerləşdirilmişdir (linklər: http://bbtc.gov.az/front/az/publications; http://bbtc.gov.az/front/az/article/632).<br>Növbəti il üçün yeni tədris istiqamətlərinə olan tələbatın müəyyən edilməsi məqsədi ilə Bakı Biznes Tədris Mərkəzi tərəfindən hər ilin sentyabr-oktyabr aylarında hazırlanmış sorğu anketləri əsasında Bakı şəhərində və regionlarda sahibkarlar arasında sorğular keçirilir, nəticələri emal olunur, mövcud tədris materialları təkmilləşdirilir və yeniləri hazırlanır.<br>Sonuncu belə sorğu cari ilin sentyabr ayında Bakı şəhərinin və Quba-Xaçmaz, Aran, Gəncə-Qazax, Şəki-Zaqatala, Lənkəran, Dağlıq Şirvan, Abşeron, Yuxarı Qarabağ iqtisadi rayonlarının müxtəlif inzibati rayonlarında fəaliyyət göstərən 750 kiçik və orta sahibkarlar arasında keçirilmişdir. Sorğunun nəticələri emal edilmiş, yeni tədris istiqamətləri müəyyən edilmiş, mövcud tədris materiallarının təkmilləşdirilməsinə, yenilərinin hazırlanmasına başlanılmışdır.<br>KOS subyektləri üçün “ömür boyu öyrənmək” imkanlarının təmin edilməsi məqsədi ilə müvafiq işləri görülmüşdür. Aidiyyəti dövlət qurumlarının nümayəndələri ilə birlikdə 25.08.17. tarixində iclas keçirilərək müxtəlif təkliflər irəli sürülmüşdür. |

| | | |
|---|---|---|
| | | İqtisadiyyat Nazirliyinin Bakı Biznes Tədris Mərkəzi tərəfindən “Ömür boyu öyrənmək” imkanlarının təmin edilməsi sahəsində beynəlxalq təcrübə (Almaniya, Estoniya, Finlandiya) və Avropa İttifaqının ömür boyu öyrənməklə bağlı prinsipləri öyrənilmiş, onların Azərbaycanda tətbiqi imkanları araşdırılmışdır. Beynəlxalq təcrübə nəzərə alınaraq, sahibkarlar üçün keçirilən təlimlərin səmərəliliyinin artırılması məqsədilə, nəzəri təlimlərlə yanaşı, sektorlar üzrə praktiki biliklər verən, müasir təlim texnologiyalarına əsaslanan xüsusi təlimlərin keçirilməsinə diqqət artırılmışdır.<br>Eyni zamanda, illər üzrə mütəmadi keçirilən treninqlər əsasən sənaye, kənd təsərrüfatı, istehsal, xidmət, maliyyə-bank, informasiya texnologiyaları sektorları üzrə fundamental təhsildən sonrakı mərhələni əhatə etmişdir.<br>Bununla yanaşı, əlillərin iqtisadi biliklərinin artırılması və cəmiyyətə reabilitasiyası məqsədi ilə bu kateqoriyadan olan insanlara iqtisadi biliklərin və praktiki bacarıqların verilməsi məqsədi ilə Azərbaycan Əlil Qadınlar Cəmiyyətinin Gəncə şəhər şöbəsi ilə birgə Gəncədə "Biznes ideyanı yarat" və "Öz biznesinə başla" mövzular üzrə keyslərdən və işgüzar oyunlardan istifadə etməklə 2 praktiki treninqlər keçirilmişdir.<br>Bundan əlavə, məcburi köçkünlərin iqtisadi biliklərinin artırılması və sahibkarlıq bacarıqlarının əldə edilməsi məqsədi ilə müasir təlim texnologiyalarından (distant təlimlərdən) istifadə etməklə, "Biznes planların hazırlanması", "Biznes ideyanı yarat", "Öz biznesinə başla", “Kənd təsərrüfatında sahibkarlıq fəaliyyətinin sığortalanması”, “Ekoloji təmiz kənd təsərrüfatının inkişafı” s. mövzular üzrə 4 praktiki treninq keçirilmişdir. |
| 17. | İqtisadi sahədə törədilən cinayətlərə görə məsuliyyətin yüngülləşdirilməsi və dekriminalaşdırılması ilə əlaqədar qanunvericilik və digər tədbirlərin | Azad sahibkarlığın inkişafı üçün kompleks dövlət dəstəyi tədbirlərinin davam etdirilməsi, o cümlədən iqtisadi sahədə törədilən cinayətlərə görə məsuliyyətin yüngülləşdirilməsi və dekriminallaşdırılması, habelə sahibkar məmnunluğuna nail olunması üçün “Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2016-cı il 6 may tarixli 230-VQD nömrəli Qanunu ilə iqtisadi sahədə törədilən cinayətlərə görə məsuliyyətin yüngülləşdirilməsi və dekriminallaşdırılması həyata keçirilmişdir. |

| | | |
|---|---|---|
| | görülməsi (9.5) | |
| 18. | Açıq hökumət və korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşan beynəlxalq təşkilatlar və xarici ölkələrin aidiyyəti dövlət orqanları ilə əməkdaşlıq əlaqələrinin təkmilləşdirilməsi, tövsiyə və tələblərin icrası üzrə tədbirlərin həyata keçirilməsi (10.1.) | 2017-ci ilin birinci yarısında Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası, Beynəlxalq Standartlaşdırma Təşkilatı (İSO) və Britaniya Standartlar İnstitutunun (BSİ) birgə təşkilatçılığı ilə “Antikorrupsiya idarəetmə sistemi” beynəlxalq standartı üzrə konfrans keçirilmişdir. Konfransda açıq hökumət prinsiplərinin tətbiqinin genişləndirilməsi, korrupsiyanın qarşısının alınması üzrə yeni mexanizmlərin tətbiqi, vətəndaş cəmiyyəti institutlarının fəaliyyətinin və ictimai nəzarətin gücləndirilməsinin sahibkarların və istehlakçıların hüquqlarının müdafiəsi sahəsində “Antikorrupsiya idarəetmə sistemi” beynəlxalq standartının (İSO 37001 “Anti-bribery Management Sistems”) tətbiqinin mühüm əhəmiyyət kəsb etdiyini və həmin standartın tələbləri barədə məlumatlar dövlət və qeyri-dövlət təşkilatlarının nümayəndələrinin nəzərinə çatdırmışdır. Standartların tələblərinə uyğun məhsul istehsalına nail olmaq, sahibkarlıq fəaliyyətini asanlaşdırmaq və yaxşılaşdırmaq məqsədi ilə respublika ərazisində yeni yaradılan laboratoriyaların akkreditasiyası həyata keçirilmişdir. Konfransda İqtisadiyyat Nazirliyinin 3 əməkdaşı iştirak etmiş və tədbirin nəticələrinə əsasən Britaniya Standartlar İnstitutu (BSİ) tərəfindən müvafiq sertifikatlar əldə etmişlər.<br>İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üzrə Antikorrupsiya Şəbəkəsinin İstanbul Fəaliyyət Planı çərçivəsində 31.03.10. tarixində Azərbaycan Respublikası ilə bağlı ikinci dəyərləndirmə hesabatının qəbul edilməsi və korrupsiyaya qarşı mübarizə ilə bağlı müvafiq tövsiyələrin verilməsi haqqında tədbirlər planında və hesabatda göstərilən tövsiyələrin icrası ilə əlaqədar iqtisadi inkişaf nazirinin 28.12.10. tarixli F-150 nömrəli əmrində nəzərdə tutulmuş tapşırıqların icrasının təmin edilməsi məqsədilə 2017-cı ilin I rübü ərzində görülmüş işlər barədə məlumatlar ümumiləşdirilərək, 15.02.17. tarixli İSN-X/O-1266/2017 nömrəli məktubla Azərbaycan Respublikasının Baş Prokurorluğuna təqdim edilmişdir.<br>Azərbaycan Respublikası Prezidenti Administrasiyası tərəfindən 20.06.17. tarixində keçirilmiş İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üzrə Antikorrupsiya Şəbəkəsinin 3-cü Monitorinq Raundu çərçivəsində ölkəmiz üzrə verilən tövsiyələrin icrası ilə bağlı |

| | | |
|---|---|---|
| | | qəbul edilmiş hesabatın təqdimatında və müzakirəsində İqtisadiyyat Nazirliyinin nümayəndələri iştirak etmişdir.<br>İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üzrə Antikorrupsiya Şəbəkəsinin İstanbul Fəaliyyət Planının 3-cü Monitorinq Raundu çərçivəsində 17.09.16. tarixində Paris şəhərində keçirilmiş plenar iclasında Azərbaycan Respublikası barədə qəbul edilmiş hesabatda korrupsiyaya qarşı mübarizə sahəsində verilmiş tövsiyələrin icrası ilə bağlı görülmüş işlərə dair 2017-ci ilin 1-ci yarısına dair məlumatlar 07.08.17. tarixli İSN-X/O-9883/2017 nömrəli məktubla Azərbaycan Respublikasının Baş Prokurorluğuna təqdim edilmişdir.<br>Korrupsiyaya qarşı mübarizənin daha da gücləndirilməsi istiqamətində Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupunun (GRECO), eləcə də İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Şərqi Avropa və Mərkəzi Asiya üzrə Antikorrupsiya Şəbəkəsinin təşəbbüsləri İqtisadiyyat Nazirliyinin bu sahədə fəaliyyətində prioritet hesab edilmiş və müvafiq uyğunluq hesabatlarında ölkəmizin əldə etdiyi nəticələrin yüksək qiymətləndirilməsi məqsədilə aidiyyəti tədbirlərin görülməsinin vacibliyi daim nəzarətdə saxlanılmışdır.<br>Bundan əlavə, Avropa İttifaqı tərəfindən maliyyələşdirilən “Azərbaycanda ədliyyə sisteminin inkişafına və məhkəmə qərarlarını icra edən qurumların göstərdiyi xidmətlərin təkmilləşdirilməsinə dəstək” layihəsinin Rəhbər Komitəsinə nümayəndə kimi İqtisadiyyat Nazirliyinin əməkdaşı daxil edilmiş, 28.02.17. və 19.09.17. tarixlərində keçirilmiş Rəhbər Komitənin 3-cü və 4-cü iclaslarında İqtisadiyyat Nazirliyinin nümayəndəsi rəhbər şəxs kimi iştirak etmişdir.<br>Avropa İttifaqının TAİEX texniki yardım aləti çərçivəsində 2017-ci ilin 20-21 mart tarixlərində Belçikanın Brüssel şəhərində "Açıq Məlumatın üstünlükləri: Siyasətdən dövlət sektoru informasiyasının yenidən istifadəsinə doğru" mövzusunda, həmçinin 2017-ci il 13-14 noyabr tarixlərində Brüssel şəhərində "Avropa İttifaqı ölkələrində cəza aktivlərinin izlənilməsi və müəyyənləşdirilməsi üzrə ən yaxşı təcrübələr” mövzusuna həsr olunmuş TAİEX seminarlarında İqtisadiyyat Nazirliyinin nümayəndələri iştirak etmişdir.<br>BMT-nin Narkotiklər və Cinayətkarlığa qarşı Mübarizə İdarəsinin (UNODC) Konvensiyasının icra |

| | | |
|---|---|---|
| | | vəziyyətinin qiymətləndirilməsi ilə bağlı, həmin konvensiyanın 2-ci (Korupsiyanın qarşısının alınması) və 5-ci (Vəsaitlərin qaytarılması) fəsillərinin ölkəmizdə icra vəziyyətinin qiymətləndirilməsi üzrə 6 aylıq dəyərləndirmə prosesinin başlanılması ilə bağlı UNODC tərəfindən ilkin bir ay müddətində qiymətləndirilmənin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Korrupsiyaya qarşı Mübarizə Komissiyasının təqdim etdiyi sorğu vərəqəsi 07.08.17. tarixli İN-X/O-9883/2017 nömrəli məktubla cavablandırılmışdır.<br>Hazırda Avropa İttifaqı tərəfindən maliyyələşdirilən və İqtisadiyyat Nazirliyinin Sahibkarlığın inkişafı siyasəti şöbəsinin benefisiarı olduğu “Kiçik və orta sahibkarlığın inkişafı sahəsində Azərbaycan Hökumətinə dəstək” adlı layihəsi icra edilməkdədir. |
| 19. | Müxtəlif hədəf qrupları, o cümlədən dövlət qulluqçuları üçün korrupsiyaya qarşı mübarizə və etik davranış üzrə təhsil-tədris proqramlarının hazırlanması, təlim və treninqlərin keçirilməsi, belə təşəbbüslərin dəstəklənməsi (10.2.) | Cəmiyyətin və dövlətin inkişafı, vətəndaşların rifah halının yaxşılaşdırılması, davamlı iqtisadi artımın təmin edilməsi, şəffaflığa nail olunması və əlverişli biznes mühitinin yaradılması üçün korrupsiyaya qarşı mübarizə istənilən cəmiyyət və dövlətin prioritet vəzifələrindən biridir. Bu məqsədlə müvafiq monitorinqlərin və tədqiqatların aparılması, treninqlərin keçirilməsi, antikorrupsiya mövzularına dair vəsaitlərinin nəşri, maarifləndirmə və məlumatlandırma kampaniyalarının aparılması Nazirlik tərəfindən aparılan əsas tədbirlərdəndir. Bununla əlaqədar, İqtisadiyyat Nazirliyi tərəfindən “Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı”nın İqtisadiyyat Nazirliyi üzrə icrasına dair 2017-ci il üçün iş planının 19-cu bəndinin icrasının təmin edilməsi məqsədi ilə iqtisadiyyat nazirinin 07.03.17. tarixli F-40 nömrəli əmri verilmişdir. Əmrə əsasən 14.03.17. tarixində “Açıq Hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı”nın tələbləri və qarşıda duran vəzifələr”, 17.04.17. tarixində “Açıq məlumatların istifadəsi, yararlılığı və təkrar istifadəsi”, 15.05.17. tarixində “Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumatvermə və belə məlumatları verən şəxslərin dövlət müdafiəsi”, 16.06.17. tarixində “Elektron xidmətlərin dövlətin, cəmiyyətin inkişafında rolu, korrupsiyanın qarşısının alınmasında preventiv tədbir kimi”, 17.07.17. tarixində “Vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın qurulması və onların fəaliyyətinin dəstəklənməsində dövlət orqanlarının rolu”, 18.08.17. tarixində “ASAN xidmət” mərkəzlərində rəhbər tutulan fəaliyyət prinsipləri və şəffaflıq standartlarının dövlət orqanlarında tətbiqi”, 18.09.17. tarixində ”Vətəndaş müraciətləri haqqında” |

| | | |
|---|---|---|
| | | Azərbaycan Respublikasının Qanununun tətbiqi məsələləri", 25.10.17. tarixində "Etik davranış qaydaları, prinsipləri, mahiyyəti və həyata keçirilməsinin təmin olunması", 16.11.17. tarixində "Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında" Konvensiya və bu Konvensiyaya qoşulmaqla əlaqədar Azərbaycanın üzərinə götürdüyü öhdəliklər", 15.12.17. tarixində isə "Maraqlar toqquşmasının qarşısının alınması sahəsində dövlət qulluqçularının vəzifəsi və bununla qanun pozuntusuna görə dövlət qulluqçularının məsuliyyəti" mövzularında təlimlər keçirilmişdir. Keçirilmiş treninqlərdə 300-ə yaxın Nazirlik əməkdaşları iştirak etmişdir. |
| 20. | Açıq hökumət və korrupsiyaya qarşı mübarizə sahəsində sosial çarxların, bukletlərin, yaddaş kitabçalarının və digər maarifləndirici materialların nəşri və paylanması (10.4) | Hesabat dövründə, açıq hökumət və korrupsiyaya qarşı mübarizə sahəsində bukletlər, yaddaş kitabçaları və digər maarifləndirici materiallar nəşr edilmiş və müxtəlif tədbirlərdə, treninqlərdə və konfranslarda vətəndaşlara, istehlakçılara və sahibkarlara paylanılmışdır. Bu dövrdə İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti tərəfindən istehlakçı hüquqlarına dair 18 adda 10 mindən çox buklet, 6 adda 600-dən artıq yaddaş kitabçası nəşr edilmiş və paylanmışdır. Maarifləndirici materialların daha geniş yayılması üçün bu dövrdə KİV-lə sıx əməkdaşlıq davam etdirilmiş, AZƏRTAC İnformasiya Agentliyi, "Milli.az" portalı, "Palitra" qəzeti və s. kimi media vasitələrində müxtəlif mal və xidmətlərə dair 20-ə yaxın maarifləndirici məlumat yayımlanmışdır. Məlumat üçün qeyd edək ki, sözügedən maarifləndirici məlumatlar Dövlət Xidmətinin www.consumer.gov.az internet səhifəsində də yerləşdirilmişdir. Açıq hökumət və korrupsiyaya qarşı mübarizə sahəsində maarifləndirici nəşrlərlə yanaşı, İKT-nin imkanlarından istifadə olunmaqla, istehlakçıların və sahibkarların elektron məlumatlandırılması da həyata keçirilmişdir. Belə ki, İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti tərəfindən sahibkarların və istehlakçıların maarifləndirilməsi məqsədilə ticarət qaydalarına əməl olunmasına dair 4 maarifləndirici məlumat 560 mindən çox elektron ünvana göndərilmişdir. Malları, işləri və xidmətləri dövlət vəsaiti hesabına satın alan mərkəzi və yerli icra hakimiyyəti orqanlarının maarifləndirilməsi və məlumatlandırılması məqsədilə satınalmaların təşkili prosedurları ilə bağlı 5 maarifləndirici məlumat 685 satınalan təşkilatın elektron ünvanına göndərilmişdir. İqtisadiyyat Nazirliyinin "Sahibkarlara Dəstək" Məlumat səhifəsində (sahibkar.economy.gov.az) yerləşdirilən yeni |

| | | |
|---|---|---|
| | | informasiya və məlumatların qeydiyyatdan keçmiş 1600-dən artıq sahibkara elektron qaydada operativ olaraq göndərilməsi davam etdirilmişdir. |
| 21. | Fəaliyyət Planının icrasının monitorinqi prosesinə informasiya texnologiyalarının tətbiqi üzrə tədbirlərin görülməsi, dövlət orqanları tərəfindən Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icrasına məsul şəxslərin müəyyən edilməsi (11.1) | İqtisadiyyat Nazirliyində “İş planları və vacib tapşırıqların icrasına nəzarət sistemi (icra-mb)” yaradılaraq 2015-ci ildən istifadəyə verilmişdir. Bununla əlaqədar, 2017-ci ildə Fəaliyyət Planında nəzərdə tutulmuş, İqtisadiyyat Nazirliyinin icraçı olduğu tədbirlərin hər bir bəndinin icrasına məsul şəxslər müəyyən edilərək, əmrlə təsdiqlənmişdir. “Milli iqtisadiyyat və iqtisadiyyatin əsas sektorlari üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasi Prezidentinin 06.12.16. 1138 nömrəli Fərmanının icrasından irəli gələn məsələlərin həlli məqsədilə sistemə yeni modul əlavə olunmuş və portaldan istifadə ilə bağlı Nazirliyin əməkdaşlarının maarifləndirilməsi və bu istiqamətdə biliklərinin daha da təkmilləşdirilməsi məqsədilə treninqlər keçirilmişdir.<br>Hesabat dövründə sistemə yeni "Daxili əmrlər" modulu əlavə edilmiş və 2017-ci ilin sentyabr ayından istifadəyə verilmişdir.<br>Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının Milli Fəaliyyət Planı”nın 11.1-ci bəndinin icrası ilə bağlı yaradılmış “Elektron Monitorinq Sistemi”nə İqtisadiyyat Nazirliyi tərəfindən məsul şəxsin müəyyən olunması və onunla bağlı müvafiq məlumatların aidiyyəti üzrə göndərilməsi və məsul şəxsin 23.01.17. tarixində keçiriləcək təqdimatda iştirakı təmin olunmuşdur.<br>Hazırda “Elektron Monitorinq Sistemi”i (ems.gov.az) tam fəaliyyət göstərir. Milli Fəaliyyət Planı çərçivəsində İqtisadiyyat Nazirliyi tərəfindən görülmüş işlər barədə məlumatlar, tədbirlər və elanlar mütəmadi olaraq ems.gov.az Portalına yerləşdirilir. |
| 22. | Dövlət orqanlarının daxili nəzarət qurumları ilə korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış orqanlar arasında məlumat | Hesabat dövründə, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya tərəfindən Dövlət orqanlarının daxili nəzarət qurumları ilə məlumat mübadiləsi və səmərəli əlaqələndirmənin təşkili məqsədilə yaradılmış “Elektron Monitorinq Sistemi” (ems.gov.az) vasitəsilə dövlət orqanlarının daxili nəzarət qurumları ilə korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış orqan olan Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası arasında sistem üzərindən məlumat mübadiləsi və əlaqələndirmə işləri tam elektronlaşdırılmışdır. İqtisadiyyat Nazirliyində “Elektron Monitorinq Sistemi”nə məsul şəxs Nazirliyin |

| | | |
|---|---|---|
| | mübadiləsi və səmərəli əlaqələndirmənin təşkili (11.2.) | Daxili nəzarət şöbəsinin əməkdaşı müəyyən olunmuşdur.<br>Hazırda, İqtisadiyyat Nazirliyinin Daxili nəzarət şöbəsi ilə Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası arasında məlumat mübadiləsi, bütün yazışmalar, hesabatlar, tədbirlər və elanlar “Elektron Monitorinq Sistemi” vasitəsilə aparılmaqdadır. |
| 23. | Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin icrası üçün vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın qurulması və onların fəaliyyətinin dəstəklənməsi (11.5.) | İqtisadiyyat nazirinin 07.03.17. tarixli F-40 nömrəli əmrinə əsasən Nazirliyin strukturlarının əməkdaşları üçün 14.03.17. tarixində “Açıq Hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı”nın tələbləri və qarşıda duran vəzifələr”, 17.07.17. tarixində “Vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın qurulması və onların fəaliyyətinin dəstəklənməsində dövlət orqanlarının rolu” mövzusunda treninq keçirilmişdir.<br>“Konstitusiya Araşdırmalar Fondu” və Avrasiya Əməkdaşlıq Fondunun dəstəyi ilə "Vətəndaşların müraciət hüququnun reallaşdırılması mexanizmlərinin təkmilləşdirilməsi" layihəsi icra edilir. Layihənin məqsədi vətəndaş müraciətləri ilə bağlı geniş maarifləndirmə tədbirlərini həyata keçirmək, vətəndaş müraciətlərinə baxılması ilə əlaqədar mövcud praktikanın təkmilləşdirilməsi üçün təkliflər hazırlanmasıdır. "Konstitusiya Araşdırmalar Fondu”nun təklifii ilə Azərbaycan Açıq Hökumət Platformasının 18.10.17. tarixində vətəndaş müraciətlərinə baxılması mövzusunda müzakirələrdə İqtisadiyyat Nazirliyinin nümayəndələri iştiak etmişdir.<br>Həmçinin, Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin icrası üçün qeyri-hökumət təşkilatları ilə əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə “Şəffaflıq-Azərbaycan“ Korrupsiyaya qarşı Mübarizə İctimai Birliyi, “Konstitusiya Araşdırmalar Fondu” və digər vətəndaş cəmiyyəti inistutları ilə, həmçinin, Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun nümayəndələri ilə mütəmadi görüşlər keçirilmiş, onların təşkil etdiyi tədbirlərdə İqtisadiyyat Nazirliyindən nümayəndələr fəal iştirak etmişdir.<br>Eyni zamanda, Şəffaflıq-Azərbaycan“ Korrupsiyaya qarşı Mübarizə İctimai Birliyi, “Konstitusiya Araşdırmalar Fondu” Milli Fəaliyyət Planlanın icrasına dair nəşr etdiyi kitablar və digər materallar xidməti istifadə üçün əldə edilmişdir. Milli Fəaliyyət Planının icrası istiqamətində həmin nəşrlərdən mütəmadi olaraq istifadə edilir. |
| 24. | Açıq hökumət və | Açıq hökumət və korrupsiyanın qarşısının alınması üzrə tədbirlərin icra vəziyyətinin İqtisadiyyat |

| | | |
|---|---|---|
| | korrupsiyanın qarşısının alınması üzrə tədbirlərin icra vəziyyəti və qiymətləndirilməsi ilə bağlı ixtisaslaşmış sorğuların, araşdırmaların keçirilməsi və nəticələrinin elan edilməsi (11.6.) | Nazirliyi üzrə qiymətləndirilməsi ilə bağlı ixtisaslaşmış sorğunun keçirilməsi məqsədi ilə araşdırmalar aparılmış və 11 aparıcı media orqanının (AZƏRTAC, APA, Trend, İnrefax, Azadinform, Salamnews, SİA agentlikləri, "Qafqazinfo.az", "1news.az", "Day.az", "Milli.az" portalları) 20-ə yaxın nümayəndəsi arasında sorğu keçirilmişdir. Sorğuda test və açıq formatda olan 15 sualdan istifadə edilmişdir. Sorğu əsasən İqtisadiyyat Nazirliyi tərəfindən "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın icrasına, Nazirliyin fəaliyyətində şəffaflığa və hesabatlılığa, elektron xidmətlərə, maarifləndirməyə ehtiyac olan sahələrə və ümumilikdə Nazirliyin fəaliyyət istiqamətlərinə dair suallardan ibarət olmuşdur. Sorğunun nəticələri ümumiləşdirilmiş və aşağıdakı nəticələr əldə olunmuşdur: Media nümayəndələri “Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı”nın icrası ilə əlaqədar İqtisadiyyat Nazirliyi tərəfindən həyata keçirilən tədbirlərdən razıdır və böyük əksəriyyəti Nazirliyin fəaliyyətində şəffaflığı və hesabatlılığı müsbət qiymətləndirir. Respondentlərin hamısı Nazirliyin fəaliyyət istiqamətləri barədə tam, Nazirlik tərəfindən həyata keçirilən maarifləndirmə tədbirləri barədə isə qismən məlumatlıdır. Sorğu iştirakçılarının əksəriyyəti istehlakçı hüquqları və sahibkarlar üçün təşkil olunan maarifləndirmə tədbirlərini qeyd edərək, bu tədbirlərin əhatəliliyini və effektivliyini müsbət dəyərləndirir. Sorğu iştirakçıları Nazirliyin fəaliyyəti ilə bağlı məlumatı daha çox qurumun internet səhifəsindən əldə edir. Digər məlumat mənbələri isə KİV və Nazirliyin elektron xidmətləridir. İştirakçıların yalnız biri Nazirliyin 195-2 Çağrı Mərkəzinin fəaliyyəti barədə məlumatsız olduğunu qeyd edib. “Çağrı Mərkəzinin xidmətlərindən istifadə etmisinizmi” sualına isə media nümayəndələrinin yarısı “Bəli”, digər yarısı isə “Xeyr” cavablarını veriblər. Respondentlərin əksəriyyəti 195-2 Çağrı Mərkəzinin fəaliyyətini yaxşı, digərəri isə qənaətbəxş kimi qiymətləndirir. Sorğuda iştirak edənlər Çağrı Mərkəzinə “Facebook” vasitəsilə zəng etmək imkanının yaradılmasını, vətəndaşların suallarının sadə dildə izah olunmasını, operatorların daha məlumatlı olmasını və onların sayının artırılmasını təklif edirlər. Media nümayəndələri hesab edirlər ki, makroiqtisadi proqnozlaşdırma, istehlakçı hüquqları və istehlak bazarında aparılan araşdırmalar, sahibkarlıq fəaliyyəti, xüsusilə də kiçik və orta sahibkarlıq, güzəştli kreditlərin alınması, qida məhsullarının keyfiyyəti ilə bağlı maarifləndirmə tədbirləri genişləndirilməlidir. Media nümayəndələrinin fikrincə, |

| | | |
|---|---|---|
| | | qiymətlər, tariflər və Tarif (qiymət) Şurasının qərarları, anons xarakterli məlumatlar barədə informasiyaların artırılmasına ehtiyac vardır. Sorğuda iştirak edənlərin əksəriyyəti bildirir ki, Nazirliyin göstərdiyi xidmətlər qismən elektronlaşdırılıb, eləcə də iqtisadiyyat sahəsində ixtisaslaşmış jurnalistlər üçün Nazirliyin funkisional fəaliyyət istiqamətləri üzrə treninqlərin keçirilməsini tövsiyə ediblər. Sorğu zamanı bir sıra təkliflər səsləndirilmişdir ki, hazırda onlar nəzərdən keçirilir və səmərəli olacağı təqdirdə Nazirliyin aidiyyəti fəaliyyət istiqaməti üzrə istifadə edilməsi planlaşdırılmışdır. İqtisadiyyat Nazirliyi tərəfindən qurumun fəaliyyəti ilə bağlı ictimaiyyətin ehtiyaclarının və tələblərinin müəyyən olunması məqsədi ilə belə sorğuların növbəti illərdə də keçirilməsi nəzərdə tutulur. |